

Milli azadlıqdan
şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 fevral
2025-ci il,
çərşənbə axşamı
№ 029 (6857)
Qiymәti
60 qәpik




# 3№-li Protokol

## Nüvədinin ilhaqından 96 il ötür...

Bax səh. 2

## İqtisadi inkişaf üçün möhkəm təməl

Bax səh. 3

## İsti torpaqda görüş...

2022-ci ildən dünyanın diqqət mərkəzində olan Rusiya - Ukrayna müharibəsi “finala” yaxınlaaşır. ABŞ-da hakimiyyət dəyişikliyinin ardından münaqişəyə baxışın dəyişməsi yeni situasiyanı şərtləndirdi - Donald Trampın sələfi Baydendən fərqli olaraq “yeganə yol müharibədir” tezisi üzərində israr etməməsi problemin masa arxasında həlli üçün zəmin yaradıb. Artıq danışıqlarla bağlı detallar demək olar ki, hazırdır.

Qeyd edək ki, fevralın 12-də Donald Tramp ilə Vladimir Putinin telefon danışığından sonra gündəmə gələn görüş məsələsi artıq reallaşır. Belə ki, ABŞ və Rusiya nümayəndələri arasında Ukraynadakı müharibənin dayandırılması ilə bağlı danışıqlar bu gün - fevralın 18-də Səudiyyə Ərəbistanında keçiriləcək. Bu barədə Amerikanın “Axios” portalı xəbər yayıb. Fevralın 17-nə keçən gecə yayılan məlumatda bildirilir ki, ABŞ nümayəndə heyətinə dövlət katibi Marko Rubio, Ağ Evin milli təhlükəsizlik üzrə müşaviri Mayk Vals və Donald Trampın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Vitkoff daxil olacaq. Vals və Vitkoff artıq 3 gündür Səudiyyə Ərəbistanındadır, Marko Rubio isə dünən İsrailə səfərini yekunlaşdıraraq Ər-Riyada gəlib.

Rusiya nümayəndə heyətinin dəqiq tərkibi son anadək açıqlanmasa da, “Axios”un ekspertlərinin fikrincə, görüşdə iştirak edəcək Kreml komandasını xarici işlər naziri Sergey Lavrov, Rusiya prezidentinin köməkçisi Yuri Uşakov və Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin təmsil edəcək. Bundan əlavə, danışıqlara Rusiya Birbaşa İnvestisiya Fondunun rəhbəri, ABŞ-da təhsil almış Kiril Dmitriyevin də qatılacağı gözlənilir.

“Kommersant” qəzeti də fevralın 16-da mənbələrə istinadən xəbər verib ki, danışıqlar çərşənbə axşamı Səudiyyə Ərəbistanında baş tutacaq. Nəşr dəqiq yeri də göstərib: Ər-Riyad...

Qeyd edək ki, danışıqlarda Ukrayna da təmsil olunacaq. Zelenski fevralın 16-da axşam saatlarında Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfərə gəlib. “FlightAware”-in məlumatına görə, bazar günü Ukrayna prezidentinin təyyarəsi Münhendən Polşanın “Rzeşov-Yasionka” hava limanına, oradan isə Əbu-Dabiyə uçub. Oradan Ər-Riyada isə iki saatlıq uçuş məsafəsi mövcuddur.

“Politico”ya adının açıqlanmasını istəməyən ukraynalı rəsmi...

Bax səh. 6




## “ASAN xidmət”in yeni ünvanı - Amerika qitəsi

Bax səh. 3

## Azərbaycan tanımır!

Bax səh. 6

## “Müharibə məşqi”, yoxsa yeni “dost” axtarışı?

Bax səh. 6

## Yeni maliyyə aləti...

Bax səh. 6

## ABŞ-dan Avropaya “qara yellər” əsir...

Bax səh. 6

## Sərt şərtlər yumşaldılır...

Bax səh. 6

## İrəvanda yaradılan zəngin Azərbaycan mədəniyyəti

2025-ci ildə Azərbaycanın görkəmli rəssamı, Azərbaycan dəzgah boyakarlığının banisi Mirzə Qədim Məhəmmədhüseyn oğlu İrəvaninin anadan olmasının 200 ili tamam olur. Prezident İlham Əliyev görkəmli rəssamın 200 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Mədəniyyət Nazirliyi rəssamın 200 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək.

Mirzə Qədim İrəvani zamanında Qərbi Azərbaycanda formalaşmış milli mədəniyyətimizin görkəmli simalarından biridir. İmperialist güc mərkəzlərinin məkrli ssenariləri əsasında qurulan indiki Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıb. 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq hədiyyə edib. Ermənilər İrəvana sahiblənməklə kifayətlənmədilər. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzur da Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilib. Azərbaycanlılar indiki Ermənistan ərazisindən həmçinin 1948-1953-cü illərdə və ötən əsrin səksəninci illərinin sonlarında olmaqla daha iki dəfə ağır deportasiyaya məruz qalıblar.

Azərbaycanlılar əsrlər boyunca yaşadıqları ərazilərdə zəngin mədəniyyət formalaşdırmağa nail olublar. Bu mədəni irsin araya-ərsəyə gəlməsində isə  Mirzə Qədim İrəvani kimi sənətkarların müstəsna xidmətləri olub.

İrəvan şəhərində anadan olan Mirzə Qədim - (4 dekabr 1825, İrəvan - 1875, İrəvan) -  15 yaşında Tiflisdəki progimnaziyanı bitirib. Fars, rus və fransız dillərini mükəmməl öyrənən Mirzə Qədim İrəvana qayıtdıqdan sonra ömrünün sonunadək poçtda teleqrafçı vəzifəsində çalışıb. Verilən məlumatlara görə, Mirzə Qədimin atası Məhəmməd Hüseyn məşhur şəbəkə ustası olub. Mirzə Qədimdə rəssamlığa meyl hələ Tiflisdə progimnaziyada oxuduğu vaxt yaranıb. Əvvəlcə şüşə və parça üzərində şəkillər çəkən Mirzə Qədim sonralar portret və ornamental kompozisiyalar ustası kimi məşhurlaşıb.

Mirzə Qədim İrəvani...

Bax səh. 2



## HƏMAS Qəzzanı təhvil verməyə hazırlaşır...

Bax səh. 7



## Avropanın vahid ordusu olmayacaq?

Bax səh. 5

# 3№-li Protokol

## Nüvədinin ilhaqından 96 il ötür...



## Qədim türk diyarının taleyini mirzoyanlar, sxakayalar həll edib

Azərbaycan zaman-zaman torpaq itkilərinə məruz qalıb. İndiki Ermənistan dövləti bizim tarixi torpaqlarımızda yaradılıb. Tarixin bu günündə - 18 fevral 1929-cu ildə qədim türk diyarı olan Nüvədi digər torpaqlarımızla eyni taleyi bölüşdü - zorla Ermənistana birləşdirildi. İndi həmin tarixdən 96 il ötür.

Nüvədinin Cəbrayıl qəzasından ayrılaraq Ermənistana ilhaqı prosesi həmin illərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsini daşıyan Levon Mirzoyanın qərarı və "xeyirduası" ilə baş tutmuşdu. Nüvədinin taleyinin həll olunduğu iclasın protokollarına nəzər yetirdikdə, iştirakçıların mütləq əksəriyyətinin qeyri-azərbaycanlılardan ibarət olması xüsusi diqqət çəkir...




**"ZAQAFQAZİYA SOVET FEDERATİV SOSİALİST RESPUBLİKASI FƏHLƏ, KƏNDLİ, QIZIL ORDU VƏ MATROS DEPUTATLARI SOVETLƏRİNİN MƏRKƏZİ KOMİTƏSİ RƏYASƏT HEYƏTİNİN**

**18 FEVRAL, 1929-cu İL TARİXLİ İCLASININ 3 №-Lİ PROTOKOLU"**

Sədrlik edirdi: Sxakaya M. yoldaş.

İştirak edirdilər:

Zaq. MİK Prezidiumunun üzvləri:

Bünyadzadə D., BağırovM., Dolidze A., Stur V., Tağıyev İ., Şaverdova A., Yaqubov yoldaşlar.

Zaq. MİK Prezidiumu üzvlüyünə namizədlər:

Cavaxaşvili A.,

Torikaşvili E. yoldaşlar.

Zaq. MSİ-dən Rixadze A. yoldaş.

Zaq. İcraiyyə Komitəsindən Şeirenç yoldaş.

Zaq. MİK Prezidiumu katibliyinin müdiri Babayev Q. yoldaş.

Zaq. MİK təşkilat şöbəsinin müdiri Melnikov F. yoldaş.

Zaq. MİK təşkilat şöbəsinin təlimatçısı Əkbərov yoldaş.

Məsləhətçi: Kaçuxaşvili İ. yoldaş.

Eşidildi: Nüvədi, Ernəzir və Tuqut kəndlərinin Azərbaycan SSR-in Cəbrayıl qəzasından Ermənistan SSR-in Mığri qəzasına aid edilməsi haqqında.

Qərara alındı: Göstərilmiş üç kənd öz torpaqları ilə Erm.SSR Mığri qəzasının inzibati idarə etməsinə verilsin.

Həmin sənədə 26 noyabr 1968-ci ildə Azərbaycan KP MK-nın Bürosunda baxılıb. Azərbaycan SSR Ali Sovetinin 7 may 1969-cu il tarixli fərmanı ilə "qanunlaşdırılıb", Zəngilan rayonunun tərkibindən çıxarılmışdır. 1988-ci ilin fevralında Ermənistan SSR-dən azərbaycanlıların son deportasiyasına başlananda nüvədililər respublika rəhbərliyi qarşısında bu fərmanın ləğv olunması barədə dəfələrlə məsələ qaldırmışlar. Lakin istədiklərinə nail ola bilməmişlər.

**Nüvədi kəndi ən qədim Azərbaycan kəndlərindən biri idi**

Tədqiqatçı, mərhum Həmzə Əliyevdə (Vəlioğlu) Nüvədi kəndinin tarixinə aid bir neçə yazılı daş var idi. Həmin daşlar Nüvədi - Qarqadaşı abidələrinin Orxon-Yenisey yazılarından xeyli qədim olduğunu bildirir. Həmzə Vəlioğlu Nüvədinin tarixi haqda 1985-ci ildən başlayaraq Azərbaycan mətbuatında da çıxış edərək daşların şəklini və onun üzərində olan yazılar barədə məlumat vermişdir.

Bu yazılar və Orxon-Yenisey yazıları eyni hərflərlə yazılmışdır. Yazının mətni sübut edir ki, azı 1000-1500 illik tarixə malik olan Nüvədi kəndi bu ərazidə hazırda xarabalığa çevrilmiş Ataman, Anqizet, Qorçinik, Enədir, Sultan Səlim kimi qədim yaşayış məskənlərinin əsasında yaranmışdır.

Nüvədidə 1831-ci ildə 291 nəfər, 1873-cü ildə 705 nəfər, 1886-cı ildə 1083 nəfər, 1897-ci ildə 952 nəfər, 1914-cü ildə isə 1072 nəfər yaşamışdır. 1918-ci ildə Andranımın quldur dəstəsinin əli Nüvədi kəndinə də çatdı. Gəncə qubernatorunun 303 nömrəli 10 dekabr 1918-ci il tarixli teleqramında deyilir ki, "Zəngəzur qəza rəisinin məlumatına görə, dekabrın 19-da Andıranımın dəstəsi yerli ermənilərlə birlikdə Nüvədi kəndini mühasirəyə aldılar..."



Burdan min atlı keçdi

«ZAQAFQAZİYA SOVET FEDERATİV SOSİALİST RESPUBLİKASI FƏHLƏ, KƏNDLİ, QIZIL ORDU VƏ MATROS DEPUTATLARI SOVETLƏRİNİN MƏRKƏZİ KOMİTƏSİ RƏYASƏT HEYƏTİNİN 18 FEVRAL 1929-cu İL TARİXLİ İCLASININ 3 №-Lİ PROTOKOLU»

*Sədrlik edirdi:* Sxakaya M. yoldaş.

*İştirak edirdilər:*

*Zaq.MİK Prezidiumunun üzvləri:*

Bünyadzadə D., Bağırov M., Dolidze A., Stur V., Tağıyev İ., Şaverdova A., Yaqubov yoldaşlar.

*Zaq.MİK Prezidiumu üzvlüyünə namizədlər*:

Cavaxaşvili A.,

Torikaşvili E. yoldaşlar.

*Zaq.MSİ-dən* Rixadze A. yoldaş.

Zaq. İcraiyyə Komitəsindən Şeirenç yoldaş.

*Zaq.MİK Prezidiumu katibliyinin müdiri*

Babayev Q. yoldaş.

*Zaq.MİK təşkilat şöbəsinin müdiri* Melnikov F. yoldaş.

*Zaq.MİK təşkilat şöbəsinin təlimatçısı* Əkbərov yoldaş.

*Məsləhətçi:* Kaçuxaşvili İ. yoldaş.

*Eşidildi:* Nüvədi, Ernəzir və Tuqut kəndlərinin Azərbaycan SSR-in Cəbrayıl qəzasından Ermənistan SSR-in Meğri qəzasına aid edilməsi haqqında.

*Qərara alındı:* Göstərilmiş üç kənd öz torpaqları ilə Erm.SSR Mığrı qəzasının inzibati idarə etməsinə verilsin.

165

Zəngəzur qəza rəisinin Gəncə qubernatoruna 15 dekabr 1918-ci il raportunda deyilir: "Qonşu kəndlərin erməniləri müsəlman Aldərə, Mərzə və Tuğut kəndlərini dağıdıb, yandırdılar, Nüvədi və Enədir kəndlərini isə mühasirəyə alıb atəşə tutmuşlar".

Nüvədi kəndinin güclü müqavimət göstərməsinə baxmayaraq, erməni silahlı qüvvələri öz məqsədlərinə çatdılar. Rayonun azərbaycanlı kəndləri kimi nüvədililəri də kənddən çıxarıb qova bildilər. Lakin Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra kəndin əhalisinin təqribən yarısı (662 nəfər) 1922-ci ildə yenidən öz doğma yurdlarına qayıtdı. 1931-ci ildə kəndə qayıdanların sayı 596-ya enmişdir. Rayonda olan ciddi milli ayrı-seçkiliyə baxmayaraq nüvədililər kəndi, təsərrüfatı bərpa etdilər, kolxoz quruldu. Kolxozun öz vəsaiti hesabına kənddə orta məktəb, mədəniyyət evi, kitabxana, məişət xidməti emalatxanası, ambulatoriya, hətta son zamanlarda xalçaçılıq fabrikinin filialı yaradılmışdı.

1988-ci ilin noyabr ayının axırınadək 200 mindən artıq azərbaycanlının Ermənistandan deportasiya olunmasına baxmayaraq, hər cür məhrumiyyətlərə sinə gərərək iki il doqquz aydan artıq bir dövrdə Nüvədi bütün Ermənistanda yeganə azərbaycanlı kəndi kimi vətənini qoruyub saxlamış və erməni təcavüzkarlara qarşı mərdliklə mübarizə aparmışdır. Nüvədinin müdafiəsinin təşkilində, əhalinin möhkəm psixoloji-mənəvi müqavimət potensialının möhkəmləndirilməsində bütün nüvədililərə layiq olduqları yüksək qiyməti vermək lazımdır. Hər bir nüvədili bu alınmaz qalanın əsgəri idi. Kolxozun sədri, respublika parlamentinin deputatı Mayıl Amanovun, böyük nüfuz sahibi olan Cəlal Əliyevin, Həsən və Həzi Musayev qardaşlarının, Əhmədəli Əliyevin ağsaqqallıq missiyalarını necə cəsarətlə və qətiyyətlə yerinə yetirdikləri diqqəti xüsusilə çəkirdi. Üç ilə yaxın müddətdə nəhəng imperiyanın məkrli siyasətinə qarşı çıxaraq, doğma yurdu tərk eləməmək adi müqavimət hissləri deyildi.

1991-ci il avqustun 8-də erməni qoşun dəstələri Sovet ordusunun köməyi ilə Ermənistanda olan axırıncı azərbaycanlı kəndinin 1700 (1979-cu ilin siyahıya alınmasına görə) nəfər əhalisini də öz doğma yurdundan didərgin saldılar.

Bu, XX əsrdə ermənilərin Nüvədiyə üçüncü hücumu idi. İlk dəfə ermənilər 1905-ci ildə nüvədililərlə geniş döyüşlər aparmış, amma onlarla bacara bilməmişlər. 1918-ci ilin payızında isə nüvədililər ermənilərin hücumlarına davam gətirə bilməyib, Araz çayını keçərək Güney Azərbaycanın Misən kəndinə pənah aparmışlar.

Misəndə o vaxtdan qalmış nüvədililər hazırda böyük nəsil yaratmışlar. 1980-ci illərə qədər bunu Sovet imperiyasından gizlədən nüvədililər, onun zəiflədiyi dövrdə Araz çayı sahillərində, tikanlı məftillər arxasında dayanıb, tez-tez qohumları ilə hal-əhval tuturdular.

Nüvədi ziyalılar kəndi olub, buradan çıxmış alimləri, müəllimləri, həkimləri, aqronomları və s. ziyalıları fəxr edir. Nüvədililərdən 5 nəfər elmlər doktoru, o cümlədən bir nəfər Azərbaycan MEA-nın həqiqi üzvü (Fikrət Əliyev) və bir nəfər müxbir üzvü, 40 nəfərdən çox elmlər namizədi, yüzlərlə ali təhsilli mütəxəssis yetişmişdir.

Nüvədi ziyalılarının xüsusilə ötən əsrin altmışıncı illərindən başlayaraq yetişib cəmiyyətdə daha yüksək yer tutmasında kənd ziyalılarından, bütün ömrünü Nüvədinin inkişafına və çiçəklənməsinə həsr etmiş, ömrü boyu kənddə ya məktəb direktoru, ya da kolxoz sədri vəzifələrində işləmiş 2001-ci ilin sentyabrında dünyasını dəyişmiş Cəlal Əliyevin böyük xidməti olmuşdur. Uzun müddət Mığrı rayon təşkilatlarında müxtəlif məsul vəzifələrdə, sonra isə Rayon Partiya Komitəsinin II katibi işləmiş Həsən Musayevi, hörmətli pedaqoq Həzi Musayevi nüvədililər və Mığrı azərbaycanlıları həmişə xoş xatirələrlə yada salırlar.

Naxçıvanı Azərbaycandan ayıran 46 kilometrlik zolağın 22 kilometri Nüvədinin payına düşürdü. Bu da həmin zolaqda ermənilərin əl-qol atmasına imkan vermirdi. Azərbaycanın rəhbəri Heydər Əliyevin uzaqgörənliyi sayəsində hələ 1980-ci ilin ortalarında Bakıdan Mığrı rayonundan keçmək şərti ilə Naxçıvana həm də hərbi təyinatlı, strateji şose yolu çəkilməyə başlandı. Amma əfsuslar olsun ki, həmin yol vaxtında çəkilib qurtarsaydı, yəqin ki, Mığrı rayonunda indi ermənilər yox idi və bu ərazini çoxdan tərk etmişdilər.

1988-ci ilin sonlarından kənd ziyalıları Azərbaycan rəhbərliyinə tez-tez müraciət edir, müdafiə məsələlərində kömək gözləyirdi. Nüvədiyə müxtəlif təşkilatlar yardım edir, tez-tez gedib-gəlirdilər. Hətta kəndi hamiliyə götürmüş şəhərlər, rayonlar, şirkətlər də var idi. Amma o zamankı Azərbaycan hökuməti kəndin müdafiəsinə heç bir kömək göstərmirdi.

# İrəvanda yaradılan zəngin Azərbaycan mədəniyyəti

## Mirzə Qədim İrəvaninin 200 illik yubileyi qeyd olunacaq

2025-ci ildə Azərbaycanın görkəmli rəssamı, Azərbaycan dəzgah boyakarlığının banisi Mirzə Qədim Məhəmmədhüseyn oğlu İrəvaninin anadan olmasının 200 ili tamam olur. Prezident İlham Əliyev görkəmli rəssamın 200 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Mədəniyyət Nazirliyi rəssamın 200 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək.



## Qərbi Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi

Mirzə Qədim İrəvani zamanında Qərbi Azərbaycanda formalaşmış milli mədəniyyətimizin görkəmli simalarından biridir. İmperialist güc mərkəzlərinin məkrli ssenariləri əsasında qurulan indiki Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıb. 1918-ci ildə yeni yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti (AXC) özünün ilk qərarlarından birində bizim tarixi şəhərimizi - İrəvanı Ermənistana faktiki olaraq hədiyyə edib. Ermənilər İrəvana sahiblənməklə kifayətlənmədilər. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzur da Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilib. Azərbaycanlılar indiki Ermənistan ərazisindən həmçinin 1948-1953-cü illərdə və ötən əsrin səksəninci illərinin sonlarında olmaqla daha iki dəfə ağır deportasiyaya məruz qalıblar.

Azərbaycanlılar əsrlər boyunca yaşadıqları ərazilərdə zəngin mədəniyyət formalaşdırmağa nail olublar. Bu mədəni irsin arayaərsəyə gəlməsində isə Mirzə Qədim İrəvani kimi sənətkarların müstəsna xidmətləri olub.

İrəvan şəhərində anadan olan Mirzə Qədim - (4 dekabr 1825, İrəvan - 1875, İrəvan) - 15 yaşında Tiflisdəki progimnaziyanı bitirib. Fars, rus və fransız dillərini mükəmməl öyrənən Mirzə Qədim İrəvana qayıtdıqdan sonra ömrünün sonunadək poçtda teleqrafçı vəzifəsində çalışıb. Verilən məlumatlara görə, Mirzə Qədimin atası Məhəmməd Hüseyn məşhur şəbəkə ustası olub. Mirzə Qədimdə rəssamlığa meyl hələ Tiflisdə progimnaziyada oxuduğu vaxt yaranıb. Əvvəlcə şüşə və parça üzərində şəkillər çəkən Mirzə Qədim sonralar portret və ornamental kompozisiyalar ustası kimi məşhurlaşıb.

## Rəssamın yaradıcılığının mühüm mərhələsi - İrəvan xan sarayının bərpası

Mirzə Qədim İrəvani Azərbaycan rəngkarlığının təşəkkülündə əhəmiyyətli rol oynamış böyük sənətkarlardandır. O, bir çox sahələri əhatə edən yaradıcılığında klassik Şərq miniatürü və xalq sənətinin zəngin ənənələrini Avropa realist boyakarlığının nailiyyətləri ilə ahəngdar şəkildə birləşdirərək orijinal üslub formalaşdırıb, Azərbaycan təsviri sənəti tarixində yeni mərhələnin başlanğıcını qoyub. Rəssamın zərif koloritli naxışlarla və ornamentli şəbəkələrlə işlənmiş, dərin bədii-estetik təsir gücünə malik tabloları, monumental portret və kompozisiyaları kamil sənət nümunələri kimi bu gün də yüksək dəyərini qoruyub saxlayır.

İrəvan xan sarayının bərpası görkəmli rəssamın yaradıcılığının mühüm bir mərhələsini təşkil edir desək, yanılmarıq. Qərbi Azərbaycan İcmasının (QAİ) məlumatına əsasən, sarayın Güzgülü zalındakı portretlərin və ornamental kompozisiyaların bərpası Mirzə Qədimə həvalə edilib. O, Güzgülü zaldakı divar rəsmlərinin əksəriyyətini xüsusi zövqlə və ustalıqla bərpa edib. Görünür, 1867-1874-cü illərdə Xan sarayında dəfələrlə aparılan bərpa işlərini Mirzə Qədim həyata keçirib. Rəssamın yağlı boya ilə çəkdiyi "Fətəli şah", "İrəvan sərdarı", "Həsən xan", "Rüstəm Zal" portretləri hazırda Tiflisdə Gürcüstan Dövlət İncəsənət Muzeyində, "Abbas Mirzə" portreti isə Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır. Mirzə Qədim İrəvani "Gənc qadının portreti", "Gənc oğlanın portreti", "Fətəli şahın portreti", "Rəqqasələr", "Molla", (hamısı Azərbaycan Milli İncəsənət Muzeyində), "Mah Tələtin portreti" (Gürcüstan Dövlət İncəsənət Muzeyi), "Quş və çiçəklər" (Dövlət Ermitajı), həmçinin də, 1850-ci illərdə, İrəvandakı Sərdar sarayının divarlarında, yağlı boya ilə çəkilmiş dörd böyük (1 m x 2 m) portretin müəllifidir. O, panel rəssamlığının əsasını qoyub.

**M.ABDULLAYEV**

# "ASAN xidmət"in yeni ünvanı - Amerika qitəsi

Bütün istiqamətlərdə müasirləşmə yolu ilə inamla irəliləyən Azərbaycanın hökumət idarəçiliyi sahəsində yaratdığı nümunəvi "ASAN xidmət" modelinə beynəlxalq səviyyədə maraq getdikcə artır. Ölkə daxilində vətəndaşların məmnunluq səviyyəsi 100 faizə yaxın olan "ASAN xidmət" artıq dünyada Azərbaycanın intellektual brendi kimi tanınır. Ayrı-ayrı ölkələr məmnuniyyətlə bu təcrübənin tətbiqinə başlayıblar. Daha bir beynəlxalq müqavilə isə bu günlərdə Somali Federativ Respublikasının Prezidenti Həsən Şeyx Mahmudun ölkəmizə səfəri çərçivəsində imzalanıb. Belə ki, fevralın 12-də "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Somali Federativ Respublikasının Prezidentinin Ofisi arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və Somali Prezident Aparatının rəhbəri Abdihakim Mohamed Yusuf mübadilə ediblər.

Eyni zamanda, Dünya Hökumətlər Sammiti çərçivəsində Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Kolumbiyanın müvafiq sahə üzrə fəaliyyət göstərən qurumu arasında dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Bununla da "ASAN xidmət" ilk dəfə Amerika qitəsində olacaq.

## Azərbaycanın intellektual brendi

Respublikamızda "ASAN xidmət" dövlət idarəçiliyi sahəsində islahatların tərkib hissəsi kimi həyata vəsiqə alıb. Prezident İlham Əliyevin müvafiq fərmanı əsasında 2012-ci il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılıb və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri fəaliyyətə başlayıb. "ASAN xidmət"in respublikamızda yüksək populyarlıq qazanması üçün böyük zaman kəsiyi lazım gəlməyib. Bakıda pilot layihə kimi əsası qoyulan "ASAN xidmət" mərkəzləri özünü doğruldub və respublikamızda qısa müddətdə bu şəbəkənin coğrafiyası regionlara doğru genişlənib. Növbəti "ASAN xidmət" mərkəzlərindən biri isə Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərimizdə - Şuşada yaradılıb. Prezident İlham Əliyev 2024-cü il iyulun 5-də işğaldan azad olunmuş ərazilərə növbəti səfəri çərçivəsində Şuşa şəhərində Dövlət Xidmətləri Mərkəzinin əsaslı təmirdən sonra açılışında iştirak edib.

"ASAN xidmət" mərkəzlərinin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri üzərində qurulub. Bu mərkəzlərin yaradılmasında qarşıya aşağıdakı məqsədlər qoyulub:

* vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması;

* vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması;

* peşəkarlıq səviyyəsinin artırılması;

* dövlət strukturlarına etimadın daha da gücləndirilməsi;

* şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi;

* elektron xidmətlərdən daha geniş istifadə olunması;

* bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılması.

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox, "ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət göstərilir. 2024-cü il 3 dekabr tarixində "ASAN xidmət"ə 80 milyonuncu vətəndaş müraciətinin qeydə alınması ilə bağlı tədbir keçirilib. Bu müraciət 3 saylı "ASAN xidmət" mərkəzinə Könül Hadıyeva tərəfindən edilib. O, Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən doğumun qeydə alınması xidmətindən yararlanıb. 80 milyonuncu müraciətin sahibi kimi Könül Hadıyevaya təşəkkürnamə və ABAD-çı tərəfindən hazırlanmış simvolik hədiyyə təqdim olunub.

## Sayca 25-ci beynəlxalq müqavilə

Azərbaycanın intellektual brendinin ayrı-ayrı ölkələrdə tətbiqi də uğurlu nəticələr verir. "ASAN xidmət" modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro ilə




əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. 2014-cü ildə "ASAN xidmət" İSO 9001:2008 və OHSAS 18001:2007 standartları üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq görülüb. "ASAN xidmət", həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Qurum 2015-ci ildə BMT-nin "Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi" kateqoriyasında 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub.

Bundan başqa, ICESCO-nun 2019-2021-ci illər üzrə üçillik fəaliyyət planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə dövlət idarəçiliyi sahəsində Azərbaycanın "ASAN xidmət" modelindən faydalanmaq tövsiyə olunub. 2023-cü il aprelin 3-də Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 52-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamə yekdilliklə qəbul edilib. Qətnaməyə 65 dövlət, o cümlədən ABŞ, Çin, Yaponiya, Avropa İttifaqı üzv dövlətləri, Avstraliya, Kanada, eləcə də Afrika, Asiya və Amerika qitələrini təmsil edən ölkələr həmmüəllif qismində qoşulublar. 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi İSO 56002:2021 "İnnovasiyalar üzrə İdarəetmə Sistemi" beynəlxalq sertifikatına layiq görülüb. 2025-ci ilin yanvar ayında Dünya İqtisadi Forumunun "Hökumət Texnologiyalarının Qlobal İctimai Təsiri: 9.8 Trilyon dollarlıq bir fürsət" adlı hesabatı dərc olunub. Sözügedən hesabatda ölkəmizdə "ASAN müraciət" informasiya sisteminin vətəndaş müraciətlərinin cavablandırılması və həllində, habelə müasir texnologiyalar vasitəsilə şəffaflığın təşviq edilməsində mühüm rol oynadığı qeyd edilir.

Perspektivdə Azərbaycanın intellektual brendinin dünyada əhatə edəcəyi coğrafiyaların daha da genişlənəcəyi gözlənilir. 2025-ci ilin yanvar ayında "ASAN xidmət" təcrübəsinin Pakistanla paylaşılmasına dair razılıq əldə edilib. Həmçinin Ruanda və bir sıra digər dövlələr də bu təcrübə ilə yaxından maraqlanırlar.

Bütövlükdə artıq "ASAN xidmət" modelinin ixracı ilə bağlı imzalanan sazişlərin sayı 25-ə çatıb. Yeni imzalanan memorandum "ASAN xidmət" təcrübəsinin Kolumbiyada tətbiqini, eləcə də kolumbiyalı dövlət qulluqçuları üçün "ASAN xidmət" mərkəzlərində təcrübə proqramlarının təşkilini, həmçinin Dövlət Agentliyinin ekspertləri tərəfindən dövlət xidmətlərinin göstərilməsi sahəsində qabaqcıl təcrübənin Kolumbiya tərəfi ilə paylaşılmasını nəzərdə tutur. Beləliklə, dövlət xidmətlərinin göstərilməsi sahəsində ölkəmizin intellektual brendi olan "ASAN xidmət" təcrübəsi Avropa, Asiya və Afrika qitəsindən sonra Amerika qitəsində də tətbiq olunacaq.

*Mübariz ABDULLAYEV*

# İqtisadi inkişaf üçün möhkəm təməl

## Qarabağ və Şərqi Zəngəzur ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcək

Prezident İlham Əliyev "Vergi Xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" mövzusunda keçirilən forumun iştirakçılarına ünvanladığı müraciətdə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra azad edilmiş ərazilərdə iqtisadi inkişaf üçün möhkəm təməl yaradıldığını diqqətə çatdırıb. Dövlət başçısı bildirib ki, bu ərazilərdə infrastrukturun bərpası, yeni sənaye və kənd təsərrüfatı sahələrinin yaradılması istiqamətində atdığımız addımlar, regionun milli iqtisadiyyata reinteqrasiyası gələcəkdə əhəmiyyətli irəliləyişlərə səbəb olacaq. Sitat: "İqtisadiyyatın diversifikasiyası və yerli əhalinin sosial rifahının təmin edilməsi bu ərazilərin sürətli inkişafını təmin edəcək, Qarabağ və Şərqi Zəngəzur bölgələri ölkəmizin ümumi iqtisadi potensialına mühüm töhfələr verəcəkdir".

## İqtisadi stimullar, dövlət dəstəyi, vergi güzəştləri

Azad olunmuş ərazilərdə iqtisadi inkişafa töhfə verə biləcək ən mühüm amillərdən biri dövlətin dəstək tədbirləri, tətbiq etdiyi iqtisadi stimullar, əhatəli vergi təşviqi alətləridir. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar üçün uzunmüddətli vergi və gömrük güzəştləri müəyyən edilib. Hökumət onların biznes fəaliyyəti ilə məşğul olmaları üçün bir çox iqtisadi-vergi güzəştləri tətbiq edib. Belə ki, həmin bölgədə fəaliyyət göstərən sahibkarlıq subyektləri 10 il müddətinə mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən azad olunub, məcburi dövlət sosial sığorta haqqı subsidiyalaşdırılır, yəni sığorta vergisini dövlət özü ödəyir. Bundan başqa, bölgədə vergi uçotuna alınan və istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə ödədikləri vəsaitin 20 faizi məbləğində maliyyə yardımı ödənilir.

Bölgədə çalışan sahibkarların maliyyə əlçatanlığının artırılması üçün güzəştli kreditlərin verilməsi də təmin olunmaqdadır. Sahibkarlar bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlər üzrə dövlət zəmanəti və subsidiyadan yararlana bilərlər. İnvestisiya layihəsi həyata keçirən sahibkarların məbləği 5 milyon manatadək, müddəti 7 ilədək, illik faiz dərəcəsi 15 faizədək olan biznes kreditlərinin 90 faizlik hissəsinə dövlət zəmanəti verilir. Bu kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi 36 aya qədər müddətdə dövlət tərəfindən subsidiyalaşdırılır.

Bu çoxşaxəli iqtisadi stimullar paketinin tətbiqi ilə yanaşı, hökumət xarici investorların bölgəyə cəlbini həvəsləndirmək üçün daha cəlbedici sərmayə təşviqləri də planlaşdırır. Dövlət başçısının müraciətində vurğulandığı kimi regionda iqtisadi dayanıqlığın təmin olunması, investisiyaların əhatə dairəsinin daha da genişlənməsi üçün daha cəlbedici biznes və vergi mühiti yaradılmalı, sahibkarlara güclü dəstək verilməlidir.




## Bölgədə "yaşıl enerji" istehsalı da yüksəlir

Qarabağ və Şərqi Zəngəzur hidroenerji, külək və Günəş enerjisi, termal su mənbələrinin gücünə görə də, ən zəngin bölgələrdəndir. "Yaşıl enerji" zonası elan edilmiş bu regionda bərpaolunan mənbələrin gücü 7200 MVt-dan artıq qiymətləndirilir. Təkcə, Laçın və Kəlbəcərin dağlıq ərazilərində külək enerjisinin 2000 MVt həcmində texniki potensialının olduğu proqnozlaşdırılır.

Ötən il Qarabağ və Şərqi Zəngəzurdakı enerji mənbələrində yüksək enerji səmərəliliyi qeydə alınıb, ölkənin ümumi enerji sisteminə inteqrasiya prosesi hədsiz dərəcədə yaxşılaşıb. Kəlbəcər rayonu və eyni zamanda, işğaldan azad edilən ərazilərdə ən böyük su elektrik stansiyası hesab edilən 22,5 meqavatlıq "Yuxarı Vəng", habelə 4,3 meqavatlıq "Zar", Laçın rayonunda 2,8 meqavatlıq "Zabux", 4,6 meqavatlıq "Qarıqışlaq", Zəngilan rayonunda isə hər birinin gücü 10,5 meqavat olmaqla "Şayıflı", "Zəngilan" və "Sarıqışlaq" su elektrik stansiyaları istismara verilib. Ümumilikdə, bu bölgədə enerji təsərrüfatlarının bərpasına başlanmasından sonra 32 su elektrik stansiyası istifadəyə verilib.

2024-cü ildə bu bölgədə fəaliyyət göstərən 32 su elektrik stansiyasında (SES) 550 milyon kilovat-saatadək ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal olunub. Həmin enerjinin üçdə biri, təxminən 200 milyon kilovat-saatı işğaldan azad edilən ərazilərin özünün enerji tələbatını ödəyib, qalan üçdə iki hissəsi isə respublikanın enerji sisteminə ötürülərək digər bölgələrin tələbatına yönləndirilib. Nəticədə, 225 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.

Qarabağ və Şərqi Zəngəzurda 2025-ci ildə 11 su elektrik stansiyasının açılışı da planlaşdırılır ki, nəticədə, əlavə olaraq enerji istehsalı potensialı dövriyyəyə cəlb olunacaq.

## Turizm sənayesi dirçəlir

İşğaldan azad olunmuş ərazilərin zəngin turizm potensialları mövcuddur. Artıq bölgədə hotel və turizm obyektlərinin əsası qoyulub, bir neçə hotel istifadəyə verilib. Şuşada "Qarabağ" və "Xarıbülbül" hotelləri, Xankəndidə "Qarabağ" və "Palace" hotelləri istifadəyə verilib fəaliyyət göstərir, Suqovuşanda böyük turizm istirahət kompleksinin yaradılması işləri davam etdirilir, eləcə də Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hoteli istifadəyə verilib. Bütün bunlar həmin bölgədə məskunlaşan insanların iş yerləri ilə təminatında mühüm rol oynamaqdadır. Təkcə hotel və istirahət mərkəzlərində 300-dən çox insanın məşğulluğu təmin edilib. Bundan başqa Füzuli və Laçına, Zabuxa qayıdan sakinlərin ənənəvi məşğuliyyətinin bərpa olunması, heyvandarlıq məqsədilə kiçik ailə təsərrüfatlarının, o cümlədən heyvandarlıq, arıçılıq, bağçılıq və s. fərdi və kiçik ailə bizneslərinin yaradılması məqsədilə hökumət tərəfindən müvafiq layihələrin icrasına başlanılıb.

## Azad ərazilərdə sahibkarların sayı artır

Dövlətin bu iqtisadi güzəşt və motivasiyaları sayəsində Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında iqtisadi dəyər yaradan sahələr formalaşmaqdadır. Bu bölgədə fəaliyyət göstərən mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin sayı təxminən 5000-i ötüb. İki il əvvəl fəaliyyətə başlamış Zəngilandakı "Dost Aqropark" layihəsi artıq öz müsbət nəticələrini verməkdədir. Bu ərazidə ötən il kənd təsərrüfatı məhsullarının istehsalı ümidverici göstəricilərlə yadda qalıb. Yaxud, Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" və Sənaye Parkının yeni formalaşan sənaye potensialının imkanları böyüyür.

Bu bölgədə Rusiyanın "Kamaz", İtaliyanın "İveco" markalı avtomobilləri üçün servis mərkəzi yaradılıb və rezidentlərin sayı artmaqdadır. 5-dən çox sahibkarlıq subyekti Parkın rezidenti kimi qeydiyyata alınıb və investisiya təşəbbüsləri dayanmadan artır.

Eləcə də Qubadlı və Zəngilanda taxılçılıq, o cümlədən üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri, heyvandarlıq təsərrüfatları, həmçinin Kəlbəcər və Laçında arıçılıq təsərrüfatları yaradılıb. Türkiyə, İsrail, Rusiya və digər ölkələrə məxsus sahibkarlar bir neçə investisiya layihəsi icra etməkdədir. Türkiyə şirkətləri işğaldan azad edilmiş ərazilərdə artıq sərmayə proqramlarının icrasına başlayıbdır. Türkiyənin "Eti Bakır A.Ş." şirkəti Qaşqaçay filiz yatağında, "Artvin Maden A.Ş." şirkəti Elbəydaş və Ağduzdağ filiz yataqlarında neçə aydır ki, fəaliyyət göstərir. Ağdam Sənaye Parkında işlərə start verilib.

Bütün bu amillər Qarabağ və Şərqi - Zəngəzur iqtisadi rayonlarının ilk iqtisadi artımının nümayişidir və bölgə artıq məhsul buraxılışı üçün hərəkətə gətirilib və işğaldan azad edilmiş ərazilər iqtisadi güc mənbəyi kimi ölkə iqtisadiyyatında əlavə dəyərin yaradılmasına inteqrasiya olunur.

## "Fitch Solutions"un Qarabağ və Şərqi-Zəngəzurla bağlı nikbin proqnozları

Dünyanın nüfuzlu tədqiat institutlarından olan "Fitch Group"a aid "Fitch Solutions" şirkətinin ötən il açıqladığı hesabatda Azərbaycan iqtisadiyyatı, o cümlədən azad ərazilərdəki iqtisadi mənbələrin artıma verəcəyi töhfələr barədə ssenarilərə yer verilib. Hesabatda qeyd edilir ki, Qarabağ və Şərqi-Zəngəzura yatırılan investisiyalar və biznes üçün təmin edilən sağlam investisiya iqlimi yaxın zamanlarda ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini verəcək. 2025-ci ildə bu dinamikanın iqtisadi artıma 1,7 faizbənd təsir göstərəcəyi ehtimal olunur. 2026-2027-ci illərdə isə iqtisadi inkişafa töhfənin 1,8 - 2 faiz-bənd olacağı gözlənilir.

Ssenarilərə əsasən, Qarabağ və Şərqi-Zəngəzurda sayı daha da artan sənaye obyektləri, ələlxüsus da sənaye parklarında yeni rezidentlərin fəaliyyətə başlaması bu bölgənin sürətli inkişafına və ümumilikdə, ölkə iqtisadiyyatına reinteqrasiyasına imkan yaradacaq. Emal sənayelərinin inkişafı nəticə etibarilə kənd təsərrüfatının inkişafı üçün əlavə stimul verəcək, xüsusilə də sənaye müəssisələrinin rentabelli fəaliyyəti sayəsində Azərbaycanın neft-qaz amilindən asılılığı minimallaşacaq və ÜDM-də qeyri-neft sektorunun payı daha da artıracaq. Bu isə iqtisadi artıma töhfə verməklə, ölkəmizin sosial-iqtisadi inkişafında dayanıqlılığı daha da möhkəmləndirəcək.

*ELBRUS CƏFƏRLİ*

# Dost və strateji tərəfdaş ölkə...

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Serbiyaya işgüzar səfəri çərçivəsində Serbiya Sarayında bu ölkənin Dövlətçilik Günü münasibətilə təşkil olunmuş qəbulda iştirak edib. Serbiyanın Prezidenti Aleksandar Vuçiç tərəfindən təşkil edilmiş mərasimdə iki ölkə arasında əməkdaşlığın və dostluq əlaqələrinin inkişafı və möhkəmləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Tədbirdə çıxış edən Ceyhun Bayramov Azərbaycan və Serbiya Prezidentlərinin rəhbərliyi ilə ölkələr arasında strateji tərəfdaşlığının daha da genişlənəcəyinə əmin olduğunu bildirib. Strateji tərəfdaşlığın inkişafında ali və yüksəksəviyyəli təmasların, mövcud dostluq münasibətlərinin, habelə bütün platformalar çərçivəsində göstərilən qeyd-şərtsiz dəstəyin əhəmiyyəti qeyd olunub.

## Serbiyanın Dövlətçilik Günü...

Xatırladaq ki, 15 fevral tarixi Qərbi Balkan regionu ölkəsi olan Serbiyada Dövlətçilik Günü kimi qeyd edilir. Dövlətçilik Günü Serbiyada hər il fevralın 15-də 1804-cü ildə Birinci Serb üsyanının başlanmasının xatirəsinə qeyd edilən bayramdır. Həmçinin 1835-ci ilin həmin günündə müstəqil Serbiyanın Sreten Konstitusiyası adlanan, vətəndaşların əsas azadlıqlarını və knyazların hakimiyyətinin məhdudlaşdırılmasını elan edən ilk demokratik konstitusiyası qəbul olunub.

Birinci Dünya müharibəsində çox ağır itkilər verdikdən sonra Serbiya Sloveniya və Xorvatiya ilə birləşərək cənub slavyanlarının birliyi olan Yuqoslaviyanı qurub. Yuqoslaviya 1990-cı illərdəki müharibələrə qədər müxtəlif idarəetmə formaları ilə mövcud olub. Yuqoslaviyanın dağılması prosesində Serbiya ilə Monteneqro ittifaq yaradıb. İttifaq 2006-cı ildə sülh yolu ilə dağılıb və Serbiya 1918-ci ildən bəri ilk dəfə olaraq suveren dövlət olub.

Serbiya cənub-şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində yerləşən, dənizə çıxışı olmayan ölkədir. Paytaxtı cənub-şərqi Avropanın ən böyük şəhərlərindən biri olan Belqraddır. Serbiyanın rəsmi dili serb dilidir, əhalisi 7 milyon nəfərə yaxındır. Ölkə iqtisadi inkişaf səviyyəsinə görə Qərbi Balkan regionunda birinci yerdədir. Müasir dövrdə Serbiya hərbi olaraq bitərəf və müdafiə sahəsinə ən çox investisiya yatıran region ölkəsidir. Əhalisinin 82 faizini serblər, qalan 18 faizini isə macarlar, bosniyalılar, qaraçılar və digər azlıqlar təşkil edir. 1990-cı illərdə Serbiya Avropada ən çox qaçqına sahib olan ölkə olub. Yuqoslaviya müharibələri nəticəsində buraya 1 milyonadək qaçqın gəlib. Onların çoxu Xorvatiyadan, az hissəsi isə Bosniya və Herseqovinadan qovulanlar olub. Bundan başqa, həmin illərdə Serbiyanı 300 min insan tərk edib ki, onların da 80 faizi ali təhsilli idilər.

## Serbiya Avropa İttifaqına üzv olmaq istəyir

Qərbi Balkan regionu ölkələri - Serbiya, Monteneqro, Bosniya və Herseqovina, Şimali Makedoniya, Albaniya və Kosovo öz gələcəyini Avropa İttifaqına inteqrasiyada görür. Aİ-nin genişlənmə planında bu 6 ölkənin ittifaqa üzvlüyü nəzərdə tutulur. İyirmi ildən artıqdır ki Aİ üzvü olmağı gözləyən altı ölkədən Serbiya, Monteneqro, Bosniya və Herseqovina, Şimali Makedoniya və Albaniya ittifaq üzvlüyünə namizəd, Kosovo isə potensial namizəd ölkələr sırasındadır.

Serbiya Avropa İttifaqına üzvlük prosesində böyük irəliləyiş əldə edən və fəal danışıqlar aparan ölkələrdən biridir. Avropa Komissiyası bu ölkənin Aİ-yə üzvlük prosesi çərçivəsində növbəti - üçüncü fəsli açmağa hazırdır. Serbiyanın 2030-cu ilədək ittifaqa üzv olacağı gözlənilir.



## Azərbaycan-Serbiya münasibətləri uğurla inkişaf edir

Strateji səviyyədə olan siyasi dialoq, həmçinin çoxtərəfli, xüsusilə də iqtisadi sahədə əməkdaşlıq Azərbaycan-Serbiya münasibətlərinin davamlı inkişafının sübutudur. Azərbaycan ilə Serbiya arasında diplomatik əlaqələrin tarixi 1997-ci ildən başlayır. Hazırda Azərbaycan-Serbiya münasibətləri yüksək səviyyədədir, hər iki ölkənin dövlət başçıları İlham Əliyevin və Aleksandar Vuçiçin qarşılıqlı səfərləri bu əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşımasına inkişafına şərait yaradıb. Yeri gəlmişkən, Serbiyanın milli bayramı münasibətilə fevralın 15-də Prezident İlham Əliyev serbiyalı həmkarına təbrik məktubu göndərib.

Qeyd edək ki, Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya fəaliyyət göstərir. Həmçinin iki ölkə arasında Strateji Tərəfdaşlıq Şurası yaradılıb. Serbiyanın paytaxtı Belqrad şəhərinin ən gözəl parklarından biri olan Taşmaydan parkında Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin abidəsi yerləşir. Abidə Taşmaydan parkı 2011-ci il iyunun 8-də yenidənqurmadan sonra istifadəyə verilən zaman Azərbaycan Prezidenti İlham Əliyevin və Serbiyanın ovaxtkı Prezidenti Boris Tadiçin iştirakı ilə açılıb. Eyni zamanda, Belqradda Azərbaycan Mədəniyyət Mərkəzi, Serbiya-Azərbaycan Ticarət Palatası və Serbiya-Azərbaycan Dostluq Cəmiyyəti, Belqrad Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi var. Azərbaycanın "AzVirt" şirkəti isə Serbiyada yol infrastrukturu layihələri həyata keçirir.

Yeri gəlmişkən, fevralın 14-də xarici işlər naziri Ceyhun Bayramov Münhen Təhlükəsizlik Konfransında iştirakı çərçivəsində serbiyalı həmkarı Marko Curiçlə görüşüb. Görüşdə Azərbaycan-Serbiya strateji tərəfdaşlıq gündəliyində duran mövzular, o cümlədən regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan-Serbiya strateji tərəfdaşlığının inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, liderlər arasında mövcud dostluq münasibətlərinin əhəmiyyəti vurğulanıb.

*Nardar BAYRAMLI*

# Yeni maliyyə aləti...

## E-pul fəaliyyəti göstərən təşkilatların sayı artır

Azərbaycanda elektron pul (e-pul) emissiyası fəaliyyətini həyata keçirən təşkilatların sayı artmaqdadır. Mərkəzi Bank ötən həftə "Tiko Azərbaycan" MMC-ni elektron pul fəaliyyətini həyata keçirmək üçün müddətsiz lisenziya ilə təmin edib. Bununla da e-pul fəaliyyəti göstərən təchizatçıların sayı genişlənib. Ötən ilin may ayında e-pul üçün ilk lisenziya əldə etmiş "United Payment" MMC-dən sonra pul bazarında marağın artması digər qurumların MB-yə müraciətinə səbəb olub və bir müddət sonra "A-Solutions", "Modenis", "PashaPay", "Mobile Payment Solutions", "Token Azərbaycan" MMC, "Mpay" QSC və "Paysis" MMC təşkilatları da elektron pul təşkilatı fəaliyyəti hüququ qazanıb. "Tiko Azərbaycan" MMC-nin lisenziya əldə etməsindən sonra e-pul təşkilatlarının sayı təxminən 10-a çatıb.

Ölkəmizdə beynəlxalq ödənişlərin təchizat xidmətinə qoşulan və Azərbaycan istiqamətinə beynəlxalq ödənişlər xidmətini təmin edən digər şirkətlərin də e-pul fəaliyyəti üçün Mərkəzi Banka müraciət etdiyi bildirilir. Hazırda həmin ödəniş xidmətlərinin göstərilməsi üçün lisenziya almaqla bağlı müraciət etmiş digər təşkilatların qiymətləndirilməsi davam edir. Hazırda onların mövcud infrastruktur və ödəniş bazarında təhlükəsizlik təminatı nəzərdən keçirilir və ekosistemləri tələblərə cavab verdiyi halda onların da elektron pul buraxılışında təchizatçı olması reallaşacaq.

## Qanun nə deyir?

Bütün dünya ölkələrində geniş yayılan e-pulun buraxılışı Azərbaycanda yeni maliyyə aləti hesab edilə bilər. Bu, son illərdə ölkəmizin ödəniş xidmətləri və ödəniş sistemləri sektorunun inkişafı, nağdsız ödənişlərin həcminin yüksəlməsi, rəqəmsal ödəniş arxitekturasının möhkəmlənməsi, maliyyə bazarlarında daim yeni alətlərin tətbiqi ilə bağlı baş verən yeniliklərin nəticəsi olaraq gerçəkləşməkdədir. Ötən il "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunun qüvvəyə minməsindən sonra e-pulun emissiyası üçün hüquqi çərçivə yarandı və MB bu prosesdə maraqlı olan təşkilatların imkanlarını dərindən araşdırdıqdan sonra yeni pulun dövriyyəyə çıxarılmasına icazə verdi. Yeni qanunda ödəniş xidmətlərinin təchizatçıları sırasına 6 təşkilat aid edilib ki, onlardan biri elektron pul təşkilatıdır. Elektron pul təşkilatları Mərkəzi Bankın müəyyən etdiyi tələblərə cavab verdiyi halda onlara lisenziya verilməsi məqsədəuyğun hesab olunur.




## E-pul nədir və hansı üstünlükləri var?

Elektron pul hər bir şəxsin hesabında, kartında olan pulun elektron formada saxlanılmasıdır. Elektron pul fiziki nağd pula ehtiyacı aradan qaldıraraq tez və asan əməliyyatlar aparmağa imkan verir. İstifadəçilər ödənişləri, köçürmələri və alışları rəqəmsal olaraq, istənilən vaxt və istənilən yerdə internet bağlantısı ilə həyata keçirə bilər ki, bu da daha rahat və əlçatandır. İstənilən şəxs qeyd etdiyimiz şirkətin provayderi olduğu mobil tətbiq vasitəsilə özünün e-pul səhifəsini yaradaraq bütün ödənişləri və köçürmələri, o cümlədən banklara kredit ödənişlərini icra edə biləcək.

E- pulun üstünlüyü onun xərc cəhətdən effektiv olmasıdır. Belə ki, fiziki olaraq kağız və ya metal valyutanın çapı, daşınması və təhlükəsizliyi müəyyən xərclər tələb etdiyi halda, e-pulda bunlara ehtiyac yoxdur.

Hazırda dünyanın əksər ölkələrində elektron pullardan istifadə olunur, 2023-cü ildə dünyada rəqəmsal ödəniş bazarının gəlirləri 111 milyard dollardan çox olub. Bu maliyyə aləti biznesin və maliyyə sektorunun əməliyyatlarında çevikliyi və intensivliyi təmin etməklə vaxt və xərc itkilərinin qarşısını alır. Bu baxımdan, ölkəmizdə elektron pulun emissiyası ölkəmizdə iqtisadi proseslərin effektivliyinin və mobilliyinin artmasına əhəmiyyətli təsir edəcək. Eyni zamanda, pul kütlələrinin dövriyyə sürətində artım müşahidə olunacağı və bu resurslara əlçatanlığın təmin ediləcəyi gözlənilir. Elektron pullar ödəniş sistemini asanlaşdırmaqla yanaşı, mərhələli şəkildə gələcəkdə kağız pullardan istifadənin minimumlaşdırılmasına səbəb ola bilər. Bu banklar üçün yeni imkan olmaqla bərabər, pul bazarı üçün də yeni məhsul buraxılışıdır.

## Təhlükəsizlik necə qorunur?

"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunda hesablaşmaların aparılması, lisenziyalaşdırma və qeydiyyata dair tələblər, elektron pul təşkilatları və operatorların müqavilə əsasında fəaliyyəti, ödəniş təşkilatının və elektron pul təşkilatının filial və nümayəndəliyinin açılması, xarici ödəniş təşkilatının və xarici elektron pul təşkilatının yerli filialının lisenziyalaşdırılması, hesab üzrə məlumat xidməti təchizatçısının reyestrə daxil edilməsi və nəzarət subyektlərinin rəhbərlərinə qarşı tələblər, təhlükəsizliyin təmin olunması və digər məsələlər öz əksini tapıb. Bu isə o deməkdir ki, e-pul dövriyyəyə buraxılmasından sonra təhlükəsizlik amili xüsusi olaraq diqqətdə saxlanılacaq. Bu pulu emissiya edən təşkilat həm qanunun tələblərinə, həm də MB-nin təlimatlarına əsasən, e-pulun yerləşdiyi və tranzaksiya olunduğu informasiya və ödəniş sistemlərinin təhlükəsizliyini təmin etməyə, müştərilərin maliyyə məlumatlarının saxlanması və qorunmasına, habelə həmin sistemlərin etibarlı və dayanıqlı fəaliyyətinə məsuliyyə daşıyır. Bu baxımdan "United Payment" MMC müştərilərin pul vəsaitlərini və şəxsi məlumatlarını qorumaq üçün ədəduzluq hərəkətlərinin aşkar edilməsi və vaxtında qarşısının alınmasında aidiyyatı təşkilatlarla birgə bütün zəruri tədbirləri həyata keçirməli olacaq.

*E.CƏFƏRLİ*

# "Müharibə məşqi", yoxsa yeni "dost" axtarışı?

## İrəvan yenə də manipulyasiya edir

Cənubi Qafqazdakı sülh prosesi mühüm bir mərhələni arxada qoyub - artıq sülh sənədinin cəmisi bir neçə müddəası üzərində danışıqlar aparılır, digər məsələlər razılaşdırılıb. Azərbaycanın qəti mövqeyi, eyni zamanda beynəlxalq qanunlara əsaslanan ədalətli yanaşması sülhün reallaşması üçün münbit zəmin yaradıb.

Bununla belə, Ermənistan yenə də özünün məkrindən əl götürmək istəmir - hətta məqam düşdükcə, revanşist arzularını bu və ya digər şəkildə ifadə edir. Məsələn, fərqli ölkələrlə keçirilən birgə hərbi təlimlər erməni mediasında çox zaman "müharibə məşqi" kimi təqdim olunur, eyni zamanda təlimləri təşkil edən dövlətlər Ermənistanın dəstəkçisi elan edilir. Başqa sözlə, Ermənistanın qeyri-konstruktiv davranışları yenə də davam edir. Təbii ki, bu "mesajlar" bölgədə narahatlıq yaratmaqla yanaşı, həm də İrəvanla hərbi müttəfiqlik statusunda olan dövlətlərə tərəf "mesaj göndərmək" kimi anlaşılır ki, bu da müsbət heç nə vəd etmir.

Eyni zamanda, Aİ-nin mülki missiya adı altında fəaliyyət göstərən qrupu da sülh üçün ümid yaranan kimi şərti sərhəddə səfər edir - təbii ki, bu da ümumi prosesə ziyandan başqa heç nə vermir...

## Yenə də "təlim"...

Yeri gəlmişkən, Ermənistan ordusunun bir qrup hərbi qulluqçusu ABŞ-dakı "Hoenfels" hərbi bazasında keçirilən "Joint Resolve-2025" hərbi təlimlərində iştirak edib. Məlumata görə, Ermənistan hərbçiləri xüsusi əhəmiyyətli obyektlərin mühafizəsi, diversiya-kəşfiyyat qruplarının zərərsizləşdirilməsi, eləcə də təlim proqramına uyğun digər manevrlərin icrasında iştirak edib.

Bu məsələ isə Ermənistan tərəfindən ABŞ ilə "müttəfiqliyin" göstəricisi kimi irəli sürülür. Bu isə açıq şəkildə sülh prosesinin inkişafına zərər vurur. Qeyd edək ki, ötən ilin yayında Ermənistanda "Eagle Partner 2024" adlı Ermənistan-ABŞ birgə təlimləri keçirilmişdi. Təlimlərdə Ermənistan silahlı qüvvələrinin sülhməramlı briqadasının, ABŞ-ın Avropa və Afrikadakı ordusunun və Kanzas Milli Qvardiyasının hərbçiləri iştirak edirdilər. Ermənistanda hərbi bazası olan Rusiyanı da qıcıqlandıran bu hərbi əməkdaşlığın intensiv xarakter alması təbii ki, narahatlıq doğurur.

## Daxili auditoriya üçün...

Bəllidir ki, bu kimi təbliğatın aparılması indiki halda daha çox daxili auditoriyaya yönəlib. Ermənistanda keçirilən sosioloji sorğular göstərir ki, bu il üçün proqnozlaşdırılan növbədənkənar seçkilərin nəticələri hazırkı hakimiyyət üçün heç də xoş olmayan sürprizlər hazırlayır. Başqa sözlə, Ermənistan ictimaiyyətinin siyasi hakimiyyətə inamı zəifləyib. Xüsusilə, Rusiya ilə əlaqələrin soyuqlaşmasından sonra erməni xalqı Paşinyanın "Qərb yolu" seçməsini birmənalı qarşılamır. Təsadüfi deyil ki, son günlərdə sosial şəbəkələrin erməni seqmentində revanşist açıqlamalar səslənir - xalq həm də Paşinyan hakimiyyətinin atdığı addımlardan narazıdır. Onlar Ermənistanın Qərbin "arxa bağçası"na çevrilməsinə etiraz edirlər, sülhün imzalanmamasından narahatlığı ifadə olunur. Avropanın ermənipərəst "orkestri"nin apardığı təbliğatın korporativ maraqlardan qaynaqlaşdığı erməni xalqı tərəfindən açıq şəkildə bildirilir - gah ABŞ, gah da Aİ çərçivəsində nələrisə əldə etmək istəyən İrəvan ancaq itirə-itirə gedir. Eyni zamanda, bu hal hakimiyyətin Ermənistan daxilində siyasi dayaqlarının sıradan çıxmasını şərtləndirir- göründüyü kimi, son çarə kimi Ermənistanın ABŞ ilə "hərbi müttəfiqliyi" mövzusu gündəmə gətirilir. Bunun üçün də adıçəkilən formatlı adi hərbi təlimlər şişirdilərək xalqa təqdim edilir.

## Aİ müşahidəçiləri nəyə baxır?

Bu davranışlar isə onu göstərir ki, Paşinyan dildə "sülh" haqqında danışsa da, arxa planda yenə də fərqli maraqlar axtarışındadır. Xüsusilə, sülh prosesinə ziyan vuran silahlanma, hərbi təlimlər və "durbinçilər dəstəsi" Ermənistan daxilində öz aktuallığını saxlamaqdadır. Nə verilən silahlar geri qaytarılmır, nə də Aİ-nin mülki ad altında fəaliyyət göstərən qrupundan imtina edilmir. Hələ üstəlik, sülhlə bağlı ümid yaranan kimi həmin "durbinçilər" Ermənistan ilə Azərbaycan arasındakı şərti sərhəddə peyda olurlar.



Yeri gəlmişkən, bu dəfə "missiya Qubadlı ərazisini "müşahidə edib". Belə ki, onlar fevralın 13-də Qubadlı rayonu ilə həmsərhəd zonada müşahidə aparıblar. Avropalı müşahidəçilər binoklla ətrafa və Azərbaycan ərazilərinə baxış keçiriblər. Qeyd edək ki, Azərbaycan sərhədçiləri ənənəvi olaraq, Müşahidə Missiyasının hərəkətlərini müşahidə altında saxlayıb və qeydə alıb.

Təəssüfləndirici haldır ki, Aİ-nin Ermənistandakı missiyası mütəmadi olaraq Azərbaycanla sərhəd boyu müşahidələr aparır. Bu barədə Azərbaycan mətbuatında məlumatlar və görüntülər yayılır. Bu faktla sübuğ olunub - Azərbaycan bəzi rayonları ilə həmsərhəd ərazidə avropalı müşahidəçilərin fəaliyyəti barədə bir neçə dəfə məlumat və görüntülər yayıb. Görünən budur ki, Ermənistan hələ də özünün himayədarlarının arxasında gizlənərək fərqli oyunlara ümid etməkdədir. Amma bu, heç bir effekt verməyəcək...

*P.İSMAYILOV*

# Azərbaycan tanımır!

## XİN Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma prezident seçkiləri ilə bağlı bəyanat yayıb



Xəbər verildiyi kimi, cari il fevralın 15-də qonşu Gürcüstanın Abxaziya bölgəsində qondarma prezident seçkiləri keçirilib. Seçkilərdə beş namizədin mübarizə apardığı bildirilib. Separatçı rejimin “Mərkəzi Seçki Komissiyasının” sədri Dmitri Marşan ikinci turun keçirləcəyini bildirib. Onun sözlərinə görə, ikinci turun keçirilməsinin səbəbi ilk turda heç bir namizədin seçkiləri qazanmaq üçün lazımi səs çoxluğunu əldə etməməsidir. “Buna görə də təkrar səsvermə keçiriləcək. İkinci turda Badra Gunba və Adqur Ardzinba iştirak edəcəklər”, - deyə Dmitri Marşan bildirib.

### Rəsmi Bakının birmənalı mövqeyi

Rəsmi Bakının bəhs olunan “seçkilərə” münasibəti birmənalı olub. Belə ki, Azərbaycan Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma prezident seçkilərini tanımır. Bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin (XİN) bəyanatında bildirilib.

“Azərbaycan Respublikası Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir və 15 fevral 2025-ci il tarixində Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma “növbədənkənar prezident seçkisi”ni, həmçinin onun nəticələrini tanımır.

Azərbaycan Abxaziya məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həllinin tərəfdarıdır”, - deyə sənəddə qeyd olunub.

Öz növbəsində Gürcüstanın Xarici İşlər Nazirliyi də Abxaziyada keçirilən “prezident seçkiləri” ilə bağlı bəyanat yayıb. Qurum separatçı Abxaziyada təşkil olunan səsverməni Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə növbəti təcavüz cəhdi adlandırıb.

Bəyanatda qeyd olunub ki, “seçkilər” Abxaziyanın qanunsuz işğalı və faktiki ilhaqına doğru atılmış addımların qanuniləşdirilməsi üçün növbəti uğursuz cəhddir. Bildirilib ki, Abxaziya bölgəsində etnik soyqırımı nəticəsində yüz minlərlə insanın məcburi köçkün və qaçqın düşməsi fonunda qondarma seçkilər beynəlxalq hüququn fundamental normalar və prinsiplərinə ziddir, onların heç bir hüquqi nəticəsi ola bilməz.



Rəsmi Tbilisi beynəlxalq ictimaiyyəti Gürcüstanın suverenliyi və ərazi bütövlüyünün pozulmasına yönəlmiş hərəkətləri düzgün qiymətləndirməyə və lazımi cavab verməyə çağırıb.

### Azərbaycan sübut etdi ki...

Azərbaycanın Abxaziyada keçirilən “seçkilərə” gecikmədən birmənalı münasibət bildirməsi səbəbsiz deyil. Burada mühüm məqam ondan ibarətdir ki, Azərbaycan da zamanında separatizmdən əziyyət çəkib. Ermənistan tərəfindən Qarabağda yaradılan separatçı rejim üç onillik ərzində ölkəmizin Konstitusiya quruluşunu pozub, qondarma təsisatlar yaradıb, özbaşına parlament və prezident “ seçkiləri” keçirib. Güclü Azərbaycan 2023-cü il sentyabrın 19-20-də keçirdiyi uğurlu lokal xarakterli antiterror tədbirləri nəticəsində sübut etdi ki, suveren dövlətin ərazisində separatçı rejim mövcud ola bilməz.

Azərbaycanda olduğu kimi, Gürcüstanda da separatizm meyilləri ötən əsrin doxsanıncı illərinin əvvələrindən başlayıb. O dövrdə keçmiş ittifaqın süqutu fonunda milli dövlətlər təhdidlərə məruz qalırdılar. Həm Azərbaycanda, həm də Gürcüstanda separatizm ocaqları da məhz qərəzli məqsədlərə hesablanaraq yaradılmışdı. 2008-ci ildə rəsmi Tbilisi öz ərazilərində separatizmə son qoymağa cəhd göstərsə də, istəyinə nail ola bilmədi, əksinə beş günlük müharibə nəticəsində torpaq itkilərinə məruz qaldı. Gürcüstanın hazırkı rəhbərliyi müstəqillik və suverenlik prinsipini önə çəkərək ölkənin ərazi bütövlüyünü sülh yolu ilə təmin etmək niyyətində olduğunu bildirir.

*Mübariz ABDULLAYEV*

# Uşaqların hərtərəfli inkişafı...

## Öncə ailə, sonra təhsil müəssisələri önəmli rol oynayır

Uşaqlar və gənclər hər bir cəmiyyətin və dövlətin gələcəyi üçün mühüm rol oynayır. Bu baxımdan, gənc nəslin düzgün tərbiyəsi, fiziki və mənəvi inkişafı, savadlı vətəndaşlar kimi yetişməsi və digər vacib amillər onların gələcəkdə cəmiyyətə inteqrasiyasına böyük təsir göstərir. Ölkəmizdə uşaq və gənclərin fiziki və mənəvi inkişafı üçün mühüm addımlar atılır. Görülən işlər bunu deməyə əsas verir ki, uşaqların mənəvi inkişafı ölkəmizin əsas prioritetlərindən biridir.

Hazırda dövlət səviyyəsində uşaq və gənclərin mənəvi və fiziki inkişafı üçün geniş şərait yaradılıb, onlara hərtərəfli stimul verən qayğı siyasəti mövcuddur. Ölkəmizdə gənclər mərkəzləri, uşaqlar, eyni zamanda gənclər üçün yaradıcılıq birlikləri var. Kütləvi olmasa belə, hər rayonda bu mərkəzlər fəaliyyət göstərir. Bu, tamamilə dövlət hesabına həyata keçirilir. Həmin mərkəzlərdə uşaq və gənclərin mənəvi istirahəti və inkişafı üçün kurslar təşkil edilir.

### İlk növbədə sağlam ailə mühiti olmalıdır

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən sosioloq Sahib Altay bildirib ki, uşaqların sosiallaşması, həm fiziki, həm də mənəvi baxımdan əhatəli, normal inkişafı cəmiyyətdəki şərtlərdən çox asılıdır. Onun sözlərinə görə, uşaqların ahəngdar fiziki-mənəvi inkişafı üçün ilk növbədə sosiallaşma institutları sağlam olmalıdır: “Birinci ailə institutu barədə məsələni qeyd edək. Sosiallaşma üçün ilk növbədə sağlam ailə mühiti olmalıdır. Ailədə psixoloji iqlim normal olmalı, valideyn öz missiyalarını başa düşməli, uşağa mülkiyyəti kimi baxmamalı, onunla aqressiv rəftar etməməlidir. Valideynin hüququ heç də uşaqların mənafeyinə zidd olmamalıdır. Bu, Konstitusiyamızda da, Ailə Məcəlləsində də var. Validenlərin hamısının təhsilli olması vacib deyil. Əsas budur ki, ailə quran cütlüklər valideynlik missiyasını başa düşsünlər, övlada düzgün tərbiyə verməyi bacarsınlar. Uşaqlarla rəftarda ifrat dominantlıq etməməli, uşaqların düşüncələrinə hörmətlə yanaşmalıdırlar. Uşaqlara müstəqil qərar qəbul etmək imkanı vermək lazımdır”.



### Məktəbin missiyası təkcə təhsil vermək deyil...

S.Altay bildirib ki, uşaq və gənclərin mənəvi, fiziki inkişafında rol oynayan ikinci institut bağçalar, orta və ali məktəblərdir: “Əlbəttə ki, burada da neqativlərdən kənar sağlam mühit olmalıdır. Uşaqların bir-birilərinə qarşı bullinq tətbiq etmələrinə yol verilməməlidir. Çünki o mühitdə hər cür uşaq var. Maksimum çalışmalıyıq ki, dayanıqlı, sağlam ailə mühitinə nail olaq. Amma bu, həmişə mümkün olmur. Bəzən orta məktəblərdə, bağçalarda, şübhəsiz ki, natamam ailələrdən olan uşaqlar olur. Yaxud da mənəvi, mədəni səviyyəsi fərqli ailələrin uşaqları təmsil olunurlar. Çalışmalıyıq ki, natamamlıq kompleksindən əziyyət çəkən uşaqlar öz yaşıdlarına qarşı aqressiya nümayiş etdirməsinlər. Yaxud belə hal baş versə, qabaqlayıcı metodlarda qarşısını almaq lazımdır. Ümumiyyətlə, məktəb mühiti sağlam olmalıdır. Bilirsiniz ki, məktəbin missiyası təkcə təhsil vermək deyil, həm də didaktikadır. Uşaqların tərbiyədə ideoloji cəhətdən zəngin böyümələrində məktəbin rolu müstəsnadır”.

### Cəmiyyətimizi neqativ, aqressiya ötürən təsirlərdən qorumalıyıq

Sosioloqun sözlərinə görə, sosiallaşma institutu kimi ailədən və məktəblərdən daha öndə təsir imkanına malik olan sosial media, sosial şəbəkələr, internet resurslarıdır: “İnternetin, sosial medianın, sosial şəbəkələrin təsiri uşaq və gənclərin davranışlarına, hərəkətlərinə, tərzlərinə birmənalı təsir göstərir. Hətta bəzən görürük ki, uşaqların aqressiv davranışında baxdıqları filmlərin, cizgi filmlərin, oyunların qəhrəmanlarına oxşama cəhdlərini hiss edirik. Bütün bunlar onların davranışlarına təsir göstərir. Çalışmalıyıq ki, uşaqların zərərli informasiyalardan qorunmasını maksimum təmin edək. Sosial şəbəkə vahidlərinin təsirlərindən uşaqların az zərər görmələri üçün qanunvericilik istiqamətində də addımlar atılmalı, təkmilləşməli, sosial şəbəkələrin fəaliyyətini tənzimləyən ayrıca qanun olmalıdır.

Cəmiyyətimiz müstəqil cəmiyyət kimi qlobal dünyaya inteqrasiya olunub. Şübhəsiz ki, qlobal dünyanın bir parçasıyıq. Baş verən hadisə sürətlə dünyanın hər bucağına təsir göstərir. Azərbaycan da kənar təsirlərdən sığortalanmayıb. Cəmiyyətimizi neqativ, aqressiya ötürən təsirlərdən qoruyaq. Filtirizasiya aparılmalıdır ki, cəmiyyətimizin mənəvi-əxlaqi düzəni pozulmasın, cəmiyyətimizin müsbət özəllikləri qorunub saxlanılsın, sosial varisliklə gələcək nəsillərə ötürülsün, cəmiyyət sosial anemiyalardan xilas olsun, sağlam düzəndə inkişaf etsin”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti üzrə hazırlanmışdır**

*Yeganə BAYRAMOVA*

# Avropanın vahid ordusu olmayacaq?

## Zelenskinin təklifi Aİ ölkələri tərəfindən birmənalı qəbul edilmir

ABŞ Prezidenti Donald Trampın Rusiya-Ukrayna müharibəsinin başa çatması üçün irəli sürdüyü təşəbbüslər rəsmi Kiyevi alternativ variantlar axtarışına sövq edib. Bu ölkənin lideri Volodimir Zelenski Avropa İttifaqının da sülh prosesində fəal iştirakına çalışır.

Zelenski Münhen Təhlükəsizlik Konfransında çıxışı zamanı bildirib ki, mövcud geosiyasi vəziyyət Avropa Silahlı Qüvvələrinin yaradılmasının zəruriliyini nümayiş etdirir: “Mən Avropaya inanıram. Siz də inanmalısınız. Sizi özünüz və Avropa naminə - Avropa xalqları, xalqlarınız, evləriniz, uşaqlarınız və ümumi gələcəyimiz naminə hərəkət etməyə çağırıram”. Onun sözlərinə görə, Avropa özünü təmin etməli və öz gücünü Ukrayna ilə birləşdirməlidir. “Bir çox liderlər Avropanın öz silahlı qüvvələrinə - Avropa Ordusuna ehtiyacı olduğunu söyləyiblər. Hesab edirəm ki, bu vaxt gəlib çatıb. Avropa Silahlı Qüvvələri yaradılmalıdır”, - deyə o əlavə edib.

### Polşanın XİN başçısı: Aİ vahid Avropa Ordusu yaratmayacaq

Dövlət başçısı, həmçinin NATO-nun Baş katibi Mark Rutteyə müraciət edərək belə silahlı qüvvələrin Alyansa əvəzləyici olmayacağını qeyd edib: “Söhbət Avropanın tərəfdaşlığımıza verdiyi töhfəni ABŞ-ın töhfəsinə bərabər etməkdən gedir. Sülh naminə birgə iş zamanı eyni yanaşmaya ehtiyacımız var”.

Lakin Ukrayna liderinin təklifinə cavab özünü çox gözlətməyib. Belə ki, Polşanın xarici işlər naziri Radoslav Sikorskiy bildirib ki, Avropa ölkələri vahid Avropa Ordusu yaratmayacaq. Radoslav Sikorski Avropanın, Avropa İttifaqının öz müdafiə imkanlarını inkişaf etdirməsini vacib sayıb.

Doğrudur, Avropanın vahid ordusunun yaradılması ideyası bir neçə ildir gündəmə gəlib. Hətta bu ideya Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen tərəfindən dəstəklənib. Hələ 2023-cü ilin iyununda Avropa Komissiyasının Prezidenti xatırladıb ki, Aİ-yə üzv dövlətlərin əksəriyyəti NATO-nun üzvüdür: “Nə yaxşı ki, NATO var. Amma NATO hər yerdə deyil. Həm də elə ssenarilər ola bilər ki, Avropa İttifaqının hərəkətinə ehtiyac ola bilər və belə halda biz fəal hərəkət etməyi bacarmalıyıq”. Siyasətçi “Aİ ordusunun yaradılmasına tərəfdardırmı?” sualına belə cavab verib: “Mən bunu tam dəstəkləyirəm. Amma ən böyük çətinlik belə bir ordudan istifadə qərarı ilə bağlıdır. Bu məsələ ilə bağlı hələ də çox müzakirələr getməlidir”.



### Şolts: Avropa heç kimə Ukraynanın demilitarizasiyası ilə bağlı razılığa gəlməyə imkan verməyəcək

Lakin belə bir ordunun yaradılması təşəbbüsü Avropada tam dəstək almayıb, müxtəlif ölkələr bu məsələyə birmənalı yanaşmır. Məsələn, “köhnə qitə”nin əsas dövlətlərindən sayılan Almaniya təklifə ehtiyatlı yanaşmanın sərgilənməsini zəruri sayır. Almaniya Kansleri Olaf Şolts Avropa İttifaqı ordusu ideyası ilə bağlı ehtiyatlı olduğunu bildirib: “Biz ilk növbədə indi qarşımızda duran məsələləri, bizdən gözlənilənləri etməliyik. İlk növbədə, silah istehsalı sahəsində Avropa əməkdaşlığını gücləndirmək lazımdır. Bundan əlavə, Avropada təhlükəsizlik yalnız transatlantik əməkdaşlıq vasitəsilə təmin edilə bilər”. O, transatlantik əməkdaşlığın və NATO-nun gücləndirilməsinin vacib olduğunu deyib.

Bununla belə Şolts deyib ki, Avropa heç kimə Ukraynanın demilitarizasiyası ilə bağlı razılığa gəlməyə imkan verməyəcək. Kansler Ukrayna ilə bağlı ABŞ-Rusiya müqaviləsinin bağlanması ehtimalına qarşı çıxaraq deyib: “Biz avropalılar buna imkan verməyəcəyik”. Eyni zamanda, o, bir daha bəyan edib ki, Ukraynaya güclü ordu lazımdır. ABŞ-ın Avropanın münaqişənin həlli üçün danışıqlar masasında fiziki olaraq iştirak etməyəcəyi ilə bağlı bəyanatına reaksiya verən Şolts “bunu bizsiz etmək mümkün deyil. Əlbəttə, bizim deməyə sözümüz var”, - deyə qeyd edib. Onun sözlərinə görə, Avropanın iştirakı olmadan heç bir təhlükəsizlik zəmanəti olmayacaq.

*N.BAYRAMLI*

# İsti torpaqda görüş...

## Ər-Riyad razılaşması nəyə yol açacaq?

## Tramp üçlü plan üzərindən "imtahan" verəcək - Putin Avropaya "yol" axtarır

2022-ci ildən dünyanın diqqət mərkəzində olan Rusiya - Ukrayna müharibəsi "finala" yaxınlaşır. ABŞ-da hakimiyyət dəyişikliyinin ardından münaqişəyə baxışın dəyişməsi yeni situasiyanı şərtləndirdi - Donald Trampın sələfi Baydendən fərqli olaraq "yeganə yol müharibədir" tezisi üzərində israr etməməsi problemin masa arxasında həlli üçün zəmin yaradıb. Artıq danışıqlarla bağlı detallar demək olar ki, hazırdır.

### Ünvan dəqiqləşdi: Ər - Riyad...

Qeyd edək ki, fevralın 12-də Donald Tramp ilə Vladimir Putinin telefon danışığından sonra gündəmə gələn görüş məsələsi artıq reallaşır. Belə ki, ABŞ və Rusiya nümayəndələri arasında Ukraynadakı müharibənin dayandırılması ilə bağlı danışıqlar bu gün - fevralın 18-də Səudiyyə Ərəbistanında keçiriləcək. Bu barədə Amerikanın "Axios" portalı xəbər yayıb. Fevralın 17-nə keçən gecə yayılan məlumatda bildirilir ki, ABŞ nümayəndə heyətinə dövlət katibi Marko Rubio, Ağ Evin milli təhlükəsizlik üzrə müşaviri Mayk Vals və Donald Trampın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Vitkoff daxil olacaq. Vals və Vitkoff artıq 3 gündür Səudiyyə Ərəbistanındadır, Marko Rubio isə dünən İsrailə səfərini yekunlaşdıraraq Ər-Riyada gəlib.

Rusiya nümayəndə heyətinin dəqiq tərkibi son anadək açıqlanmasa da, "Axios"un ekspertlərinin fikrincə, görüşdə iştirak edəcək Kreml komandasını xarici işlər naziri Sergey Lavrov, Rusiya prezidentinin köməkçisi Yuri Uşakov və Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin təmsil edəcək. Bundan əlavə, danışıqlara Rusiya Birbaşa İnvestisiya Fondunun rəhbəri, ABŞ-da təhsil almış Kiril Dmitriyevin də qatılacağı gözlənilir.

"Kommersant" qəzeti də fevralın 16-da mənbələrə istinadən xəbər verib ki, danışıqlar çərşənbə axşamı Səudiyyə Ərəbistanında baş tutacaq. Nəşr dəqiq yeri də göstərib: Ər-Riyad...

### Zelenski koordinata 2 saatlıq məsafə qədər yaxınlaşıb...

Qeyd edək ki, danışıqlarda Ukrayna da təmsil olunacaq. Zelenski fevralın 16-da axşam saatlarında Birləşmiş Ərəb Əmirliklərinə rəsmi səfərə gəlib. "Flight-Aware"-in məlumatına görə, bazar günü Ukrayna prezidentinin təyyarəsi Münhendən Polşanın "Rzeşov-Yasionka" hava limanına, oradan isə Əbu-Dabiyə uçub. Oradan Ər-Riyada isə 2 saatlıq uçuş məsafəsi mövcuddur.

"Politico""ya adının açıqlanmasını istəməyən ukraynalı rəsmi bildirib ki, Kiyev üçün Səudiyyə Ərəbistanında danışıqlar barədə xəbərlər sürpriz olub. Ukrayna nümayəndələri fevralın 16-da Səudiyyə Ərəbistanına işgüzar səfərə gəliblər, lakin Ukrayna prezidentinin ofisi müharibəni bitirmək planı hazırlanmayana qədər Rusiya tərəfi ilə görüşməyi planlaşdırmadığını bildirib. Ukrayna hökumətindəki mənbə BBC Rus Xidmətinə bildirib ki, Ukrayna nümayəndə heyəti görüşə dəvət olunmayıb və Kiyev Səudiyyə Ərəbistanına danışıqlar aparan şəxslər göndərməyib.



### Saatlar tənzimlənir - 100 gün gözləməyə ehtiyac qalacaqmı?

Son ana qədər bütün detalları gizli saxlanılan görüşün nəticəsinin XXI əsrin siyasi-iqtisadi gündəmini müəyyənləşdirəcəyi proqnozlaşdırılır. Münaqişənin bitirilməsi ilə bağlı razılığın əldə olunması həm dünyanı "qlobal səksəkə"dən xilas edəcək, həm də mübarizənin mahiyyətini dəyişəcək. Necə ki, Trampın hakimiyyətə gəlişi ABŞ-ın dünya liderliyi uğrunda mübarizə strategeyasında iqtisadi bloku birinci sıraya daşıyıb, bu razılığın da əldə edilməsi yeni dövrün inkişaf xarakteristikasını müəyyən edəcək.

Qərb polittexnoloqları münaqişənin gözlənildiyi kimi, "Kelloq planı"na əsasən nizamlanacağını düşünür. Düzdür, bu görüşdə hazır mexanizmin ortaya qoyulmasına inam elə də böyük olmasa da, qarşıdakı dövr üçün Kelloqun həm də daşıdığı statusa uyğun olaraq tərəflər arasında "elçi" ola biləcəyi düşünülür. Trampın öz elçisinə "100 gün möhlət" tanıması da bundan qaynaqlanır. Qarşıdakı 100 gün Kreml-Kiyev razılaşmasının real sənədinin hazırlanması üçün müddət ola bilər.

### Plana əsasən...

İqtisadi blokun siyasi-hərbi kateqoriyanı üstələməsi məsələsinə boş yerə toxunmadıq. Hələ seçkilər öncəsi Donald Tramp Şərqi Avropadakı müharibəni dayandıracağını bəyan edirdi. Dolayı kontekstdə "Rusiya mənim mübarizə planıma daxil deyil" kimi mövqe sərgiləyən Tramp münaqişənin gələcəyinin bu və ya digər şəkildə "status-kvo" vəziyyətində dayandırılmasının tərəfdarı olduğunu önə sürürdü. Bu isə ABŞ üçün yeni perspektiv yaradır. Belə ki:

- Müharibə indiki vəziyyətdə dondurulsa, Ukrayna itirdiklərini yenidən qazanmaq ümidi ilə ABŞ-ın ətrafında "peykə" çevriləcək;
- Rusiya isə sanksiyalar zəncirindən qurtulmaq üçün Vaşinqtonla yaxınlaşmaya meyl göstərəcək;
- Vaşinqton isə bu məsələdə ikili xal qazanacaq - həm Aİ üzərində hegemonluğu artırmaq üçün şans əldə edəcək, həm də Çinə qarşı iqtisadi müharibədə Rusiya ilə yaxınlaşma ehtimalına ümid bəsləyəcək.

Beləliklə, Trampın tənzimləmə məsələsində niyə "Kelloq planı"na üstünlük verdiyi bir daha bəlli olur. Kelloqun ABŞ Milli Təhlükəsizlik Şurasının keçmiş katibi Fred Fleytz ilə həmmüəllifi olduğu plan Kiyevin Moskva ilə danışıqlara başlamaması halında Vaşinqtonun Ukraynaya hərbi yardımı dayandıracağını nəzərdə tutur. Rusiyanın danışıqlardan imtina etməsi, əksinə, Amerikanın Ukraynaya dəstəyinin artmasına səbəb olacaq. Plana görə, tərəflər "mövcud cəbhə xətti" əsasında atəşkəs barədə razılığa gəlməlidirlər. Beləliklə, yuxarıda qeyd edilən hər 3 tezis Kelloq planının ana xəttini təşkil edir. Sadəcə olaraq, burada əsas məsələ Ukraynaya real vəziyyəti başa salmaq və Rusiyanı illərdir ki, "təbliğatı aparılan" cənubdan Çin təhlükəsi məsələsinə inandırmaqdır. Xatırladaq ki, ABŞ siyasi texnoloqları son dövrdə bu istiqamətdə fikirlərini daha da "komplektləşdirib".

### Rusiyanın "əli" güclənəcək...

Təbii ki, ortada Rusiyanın da həm maraqları, həm də gözləntiləri var. Belə ki, müharibənin dayanması bu və ya digər şəkildə Rusiya üçün qlobal enerji bazarına yenidən dönmək imkanı tanıya bilər. Onsuz da sanksiya dövründə belə Avropanın bəzi şirkətləri ilə Rusiya arasında əlaqələr tam dayandırılmamışdı - hətta bəzi ölkələr Rusiyadan enerji idxalını davam etdirirdi. Hazırki situasiya isə onların əlini daha da möhkəmləndirəcək.

Bu məqam Rusiyaya xüsusi bir üstünlük vəd edir - artıq Avropa ABŞ çətiri altında olmadığını anlayır. Başqa sözlə, qitənin təhlükəsizlik arxitekturası Avropanın özü tərəfindən hazırlanmalı və reallaşdırılmalıdır. Baş verənlər göstərdi ki, "kollektiv Qərb" anlayışı olduqca kövrək mahiyyətə malik idi - Trampın bir "toxunuşu" bu kollektivi darmadağın etdi...

Bəli, ABŞ və Rusiya arasında yeni razılaşmalar yeni dövrdə yeni münasibətlər sisteminin əsasını qoyacaq. Belə demək mümkündürsə, "İsti torpaq"dakı görüşdən isti münasibətlər doğa bilər...

**P.İSMAYILOV**

# ABŞ-dan Avropaya "qara yellər" əsir...

## "Qoca qitə"nin şıltaqlıqları ilə oynanılmayacaq

Trampın Ağ Evə qayıdışı Avropanı çıxılmaz bir vəziyyətə salıb. Seçkiöncəsi Baydenə "stavka" edən avropalı liderlər haqlı olaraq Vaşinqtondan adekvat münasibəti görürlər. Yeni komanda bütün gücü və sürəti ilə "kollektv Qərb" maraqlarını ABŞ mənafeyinə dəyişir. İstər qlobal kataklizmlərə yanaşmada, istər demokratik inkişaf planlarında, istər iqtisadi proqnozlaşdırmada, istərsə də yeni tarif planında ABŞ Avropanın maraqlarını nəzərə almır. Məsələn, 2025-ci ildən etibarən ABŞ və Avropa İttifaqı (Aİ) arasında ticarət münasibətlərində yeni tariflər tətbiq olunub. Bunlar əsasən 10 faizlik ümumi idxal rüsumudur ki, ABŞ administrasiyası Aİ-dən idxal olunan bütün mallara bu rüsumu tətbiq etməyi nəzərdə keçirir. Bundan başqa, polad və alüminium üçün əlavə rüsumlar nəzərdə tutulur. Belə ki, fevralın 10-da ABŞ Prezidenti Donald Tramp polad və alüminium idxalına 25 faiz tarif tətbiq etdiyini elan edib.

### Ticarət müharibəsi riski...

Buna qarşı cavab tədbirləri də özünü çox gözlətməyib - Aİ rəsmiləri ABŞ-ın bu addımlarını tənqid edərək, öz iqtisadi maraqlarını qorumaq üçün dərhal əks tədbirlər görəcəklərini bildiriblər. Belə ki, 2025-ci ilin mart ayının sonuna qədər Aİ bəzi ABŞ mallarına tətbiq etdiyi ticarət rüsumlarını dayandırmağı planlaşdırır.

Baş verənlər isə bir sıra ekspertlər tərəfindən ABŞ ilə Aİ arasında uçurumun daha da dərinləşməsi kimi dəyərləndirilir. Bu "çəkişmələr" mühüm təhdidlər formalaşdırır - məsələn, bu tariflərin tətbiqi ABŞ və Aİ arasında ticarət müharibəsi riskini artırır. Belə bir vəziyyət hər iki tərəfin iqtisadiyyatına mənfi təsir göstərə, iş yerlərinin itirilməsinə və istehlakçı qiymətlərinin artmasına səbəb ola bilər. Eyni zamanda, qlobal ticarət sistemində qeyri-sabitlik yaranaraq, digər ölkələr və bazarlara da mənfi təsir edə bilər.

Amma deyəsən məsələ "iqtisadi müstəvi" ilə məhdudlaşmayacaq. ABŞ Aİ-də "köklü dəyişikliklər" arzusundadır - bütün sahələrdə yeni yanaşmaların önə çıxmasını zərurət adlandırırlar. Bunun bariz nümunəsi isə Tramp administrasiyasının vitse-prezident Ceyms Devid Vensin Münhen Təhlükəsizlik Konfransındakı çıxışı oldu.

Vensin çıxışını "12 ballıq siyasi zəlzələ" də hesab etmək olar. Vitse-prezident nəzakət və diplomatik etiketi nəzərə almadan bütün detallar üzrə açıq şəkildə fikirlərini bölüşüb, artıq uzun illərdir ki, "yumşaq diplomatik rəftar"a öyrəşmiş avropalıların üzərinə soyuq leysan yağışı yağdırıb.



### Avropa ənənəvi dəyərlərdən əl çəkib...

İllərdir ki, Avropanın irəli sürdüyü ənənəvi dəyərlərə xəyanət etməsi məsələsi Vensin çıxışında qırmızı xəttlə keçib. O bildirib ki, Avropa artıq əvvəlki kimi deyil - o, ənənəvi dəyərlərindən əl çəkib, senzura, dissidentlərin repressiyaları bataqlığında qalıb və nəyi müdafiə etməyə çalışdığını belə başa düşə bilmir - bu məqama xüsusi diqqət yetirilməlidir. O baxımdan ki, Vensin irəli sürdüyü tezislər illərdir ki, Azərbaycan dövləti tərəfindən bildirilir. Aİ-nin bəzi strukturlarının, hətta Aİ-yə daxil olan bəzi dövlətlərin açıq şəkildə separatizmə dəstək verməsi, işğala haqq qazandırması "Avropa dəyərləri"nə etimadı tam şəkildə sarsıdıb.

Eyni zamanda, Vens qeyd edib ki, Avropa üçün əsas təhlükə Rusiya və ya Çindən deyil, onun öz liderlərindən gəlir. Onlar öz xalqının mənafeyini qorumaq əvəzinə söz azadlığını boğur, insanları düşüncə cinayətlərinə görə həbs edir və özlərini "mərhum SSRİ-nin məmurları" kimi aparırlar. Onlar öz vətəndaşlarından, fikirlərindən, inanclarından qorxurlar.

Bu da olduqca maraqlı detaldır. Həqiqətən də Avropa liderlərinin son illərdəki davranışları heç də beynəlxalq qanunvericiliyə və ya konvensiyalara uyğun deyil - məsələn, Makronun Azərbaycana qarşı yürütdüyü qeyri-adekvat münasibət bunu sübut edir. Əslində, Vensin bir cümləsi müasir Avropanın mənzərəsini olduqca açıq şəkildə ortaya qoyur - Aİ həqiqətdən qorxur...



### Avropa xilas ola bilməyəcək...

Vens bildirib ki, "Soyuq müharibə"dəki qələbədən sonra Qərb azadlığın qalasına çevrilməli idi, əksinə o, vaxtilə mübarizə apardığı sovet rejiminin karikaturasına çevrildi. Vens bir sıra ölkələrdə insanlara qarşı fikirlərinə görə repressiyalara dair konkret misallar çəkib.

Münhen konfransı ənənəvi olaraq müdafiə məsələlərinə həsr olunur, lakin Vens əsaslı sual verib: Avropa özünü məhz kimdən müdafiə edir? O, hər halda nəyi xilas etməyə çalışır? Avroliderlər hərbi büdcələrin artırılması zərurəti barədə danışırlar, lakin bu müdafiənin niyə qurulduğunu birmənalı cavab verə bilmirlər. Vens deyib ki, Avropanın ümumi müdafiəsi bir vaxtlar azadlıq və təhlükəsizlik naminə qurulmuşdu, bu gün isə boş sözlərdir. Avropa hakimiyyəti ənənəvi dəyərləri və azadlıqları qorumağa qayıtmasa, heç bir ordu qitəni məhv olmaqdan xilas edə bilməz.

Vensin toxunduğu ən mühüm məsələlərdən biri nəzarətsiz miqrasiya problemidir. Avropa artıq avropalılara aid deyil. Böyük şəhərlərdə yerli əhali azlığa çevrilir, ənənəvi mədəniyyət aşınır, milli maraqlar "tolerantlıq" və "müxtəliflik" haqqında qlobalist şüarlarla əvəz olunur. Vens Avropanı sonsuz müzakirələri dayandırmağa və hərəkətə keçməyə çağırıb. Sərhədlərə nəzarəti bərpa etmək, söz azadlığını bərpa etmək, senzuraya son qoymaq və yerli əhalinin hüquqlarını qorumaq lazımdır. Avropa elitası siyasi cəhətdən bir çox oyunlara qərq olur və Avropa sürətlə simasını itirir. Vens açıq şəkildə bildirib ki, əgər Avropa sağ qalmaq istəyirsə, onun kim olduğunu xatırlaması və özü olmaq hüququnu geri qaytarmağın vaxtıdır.

### "Qoca qitə" "əsa"sını itirib...

Gözlənildiyi kimi Tramp administrasiyası Aİ-yə qarşı Bayden qədər "loyal" olmadı. Özünün "yükünü", təhlükəsizlik vəzifəsini başqalarının üzərinə atmaqla işini bitmiş sayan "qoca qitə"nin söykəndiyi "əsa" əlindən çıxıb. Aİ bu gün daha çox "ərköyün uşağ"ı xatırladır - amma artıq heç kim bu "qoca uşağ"ın nazını çəkmək istəmir. Xüsusilə ABŞ...

**P.SADAYOĞLU**

# Sərt şərtlər yumşaldılır...

## "Kommersant" diqqəti Səudiyyə Ərəbistanına yönəldib


экономполитика | Реформа местного самоуправления пока забрала у муниципалитетов больше, чем дала —2
новости | Водный кризис в Крыму усиливается, ограничения водоснабжения продлятся —5
деловые новости
Коммерсантъ
Вторник 8 декабря 2020 №225 (6946 с момента возобновления издания)
kommersant.ru | КоммерсантъFM 93,6
новости Ольга Любимова рассказала Владимиру Путину о стандарте детских школ искусств и консервации культурных объектов —3
мировая политика Журналисты НТВ, задержанные в Турции, отпущены после решения вопроса по дипломатическим каналам —6
07 Больнейшее из искусств. Пандемия ударила по частному кино сильнее, чем по государственному цирку
07 Постаматы открылись хакерам. PickPoint оценил потери от взлома сети
07 Сетевую реформу закидывают в регионы. Минэкономики предлагает им самим дифференцировать тариф ФСК
08 Карточные долги не растут. Выдача кредиток сократилась с начала года
08 Нефть подкачала. «Транснефть» не ждет роста транспортировки в 2021 году
09 Гибкие офисы скрутило пандемией. В сегменте коворкингов начались банкротства
После нас хоть потом
Главные проблемы у банков начнутся в следующем году
Поступил приложный сигнал
Минцифры составило рейтинг программ для предустановки на смартфоны
Земля все окажет
Росреестр готовит электронную модель России для госуслуг
ОАО РЖД приказнилось к инвестициям
Монополия рассчитывает на 500 млрд руб. бюджетных вливаний

ABŞ-Rusiya münasibətlərinin normallaşması üzrə ikitərəfli dialoqun bərpası istiqamətində təmaslar intensivləşib - fevralın 15-də Vaşinqtonun təşəbbüsü ilə ABŞ Dövlət Departamentinin katibi Mark Rubio ilə Rusiya Federasiyasının XİN rəhbəri Serqey Lavrov arasında telefon danışığı baş tutub. Qeyd edək ki, bundan əvvəl ABŞ və Rusiyanın Prezidenti Donald Tramp və Vladimir Putin telefon danışığı aparıb.

Rusiya Xarici İşlər Nazirliyinin məlumatına görə, telefon görüşü zamanı Lavrov və Rubio Rusiya-ABŞ münasibətləri, həmçinin son beynəlxalq proseslərlə bağlı məsələləri müzarə ediblər. Hər iki tərəf Rusiya-ABŞ münasibətlərindəki problemləri həll etmək üçün təmasları davam etdirmək və iki ölkə arasında qarşılıqlı hörmətə əsaslanan dövlətlərarası dialoqun bərpası istiqamətində birgə addımlar atmaq, o cümlədən Tramp-Putin görüşünə hazırlıq barədə razılığa gəliblər. Bununla yanaşı, baş diplomatlar Ukrayna və Qəzzadakı münaqişə, eləcə də Suriyada hazırkı vəziyyət ətrafında da fikir mübadiləsi aparıblar.

Eyni zamanda Rusiya Xarici İşlər Nazirliyi və ABŞ Dövlət Departamenti tərəfindən qarşılıqlı təmaslarda maneələri aradan qaldırmaq üçün yaxın vaxtlarda ekspertlərdən ibarət işçi qrupunun yaradılacağı və qrupun ilk görüşünün keçiriləcəyi gözlənilir. Lavrov və Rubio həm də Rusiyanın ABŞ-dakı diplomatik nümayəndəliklərinin fəaliyyəti üçün şərtlərin sərtləşdirilməsi siyasətinə tez bir zamanda son qoymaq məsələsini də müzakirə ediblər.

ABŞ-ın yeni Prezidenti Donald Tramp prezident səlahiyyətlərinin icrasına başladıqdan sonra Vaşinqton və Moskva arasında Rusiya-ABŞ münasibətlərinin normallaşması, ən əsası da Ukraynadakı münaqişənin nizamlanması üzrə ikitərəfli danışıqların təşkili üçün ciddi işlər aparılır. İlkin olaraq, qapalı diplomatik təmasların aparılması, ondan sonra Tramp ilə Putin və Rubio ilə Lavrov arasında telefon görüşünün baş tutması bunu deməyə əsas verir - doğrusunu desək, həm Ağ Ev, həm də Kreml aralarındakı problemləri həll etmək, anlaşılmazlıqları aradan qaldırmaq və qlobal dünyada qarşılıqlı şəkildə ambissiyalarını uzlaşdırmaqda maraqlıdır.

Artıq ilkin görüş barədə razılıq əldə olunub - Rusiyanın "Kommersant" qəzeti məlumat verib ki, fevralın 18-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda Rusiya və ABŞ nümayəndə heyətlərinin iştirakı ilə Ukraynadakı müharibəyə son qoymaq üçün danışıqlar baş tutacaq. Rus KİV-inin, eləcə də Qərb mediasının məlumatına görə, ilk görüşdə, hətta bundan sonrakı görüşlərdə belə ABŞ-ı milli təhlükəsizlik üzrə müşavir Mayk Uoltz, Trampın Rusiya ilə danışıqlara rəhbərlik edən xüsusi nümayəndəsi Stiven Vitkoff, Rusiya tərəfini isə Putinin müşaviri Yuri Uşakov və Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkin təmsil edəcək.

Sözsüz ki, Rubio ilə Lavrov arasında baş tutan telefon görüşməsində ən aktual mövzu Rusiya və ABŞ nümayəndələrinin görüşlərinin, habelə yaxın zamanda gözlənilən Tramp-Putin görüşünün detalları olub - hər iki XİN rəhbərinin məhz bu məsələnin müzakirəsinə diqqət ayırdığına şübhə yoxdur.

### XİN rəhbərlərinin ilkin təması nəyə hesablanıb?



Böyük ehtimalla, növbəti aylarda da Rubio və Lavrov arasında telefon görüşmələri davam edəcək, hətta hər iki XİN rəhbərinin Ər-Riyadda və ya hər hansı bir neytral ölkədə görüşünün baş tutması da istisna deyil.

### Ukrayna Rusiya-ABŞ danışıqlarına dəvət ediləcək?

Tramp eyni gündə Prezident Vladimir Putin ilə yanaşı, Ukrayna Prezidenti Volodimir Zelenski ilə telefon danışığı aparıb. Lakin dövlət katibi Mark Rubio bu addımı atmadı - o, Lavrovdan sonra Ukraynanın XİN rəhbəri Andrey Sibiqa ilə də telefon danışığı aparmalı idi. Amma Rubi bunu etmədi. Bu, o anlama gələ bilər ki, qarşıdakı günlərdə Ər-Riyadda baş tutacaq görüşlərə Ukraynanın nümayəndə heyəti dəvət edilməyəcək. Halbuki, bu görüşlərin əsas mövzusu Ukraynadakı münaqişə olacaq. Belə çıxır ki, Kreml və Ağ Ev Ukraynadakı münaqişəni Kiyevin mövqeyini nəzərə almadan nizamlamaq niyyətindədirlər.

*Yunis ABDULLAYEV*

# HƏMAS Qəzzanı təhvil verməyə hazırlaşır....

## İsrail və ABŞ-dan hansı addım gözlənilir?

Yaxın zamanda HƏMAS Qəzzadan geri çəkilə bilər - qeyd edək ki, HƏMAS hərəkatının rəhbərliyi Qəzza zolağını Fələstin Milli Administrasiyasına təhvil verməyə hazır olduqlarını bəyan edib. "Sky News Arabia" telekanalı bildirib ki, rəsmi Qahirə HƏMAS-ı Fələstin Azadlıq Təşkilatı ilə təmaslar qurmağa və Qəzzanı onun nəzarətinə verməyə vadar edir. Lakin HƏMAS da Qahirə ilə danışıqlarda bunun müqabilində bəzi şərtlər irəli sürüb - hərəkat yeni administrasiyada təmsil olunmaq və pensiya ödənişləri ilə təmin olunmaq istəyir.

Bəzi ekspertlərin fikrincə, HƏMAS-ın Qəzzanı Fələstin Milli Administrasiyasına təhvil verməsi o qədər də inandırıcı görünmür. Eyni zamanda onlar hesab edirlər ki, HƏMAS təkid etsə də, Misir və İordaniya Qəzza zolağının Fələstin hakimiyyətinin nəzarətinə keçməsinə çalışacaqlar, çünki hər iki ölkə bunda çox maraqlıdır. Ən əsas mübahisə isə Qəzzada Mahmud Abbas hakimiyyətinin bərqərar olunacağı təqdirdə, Netanyahu hakimiyyəti və Tramp administrasiyasının onunla bu bölgədə əməkdaşlıq etməkdə maraqlı olub-olmayacağı sualı ətrafında aparılır.

Ekspertlər onu da vurğulayırlar ki, Qəzzada hakimiyyət Fələstin Milli Administrasiyasının nəzarətinə keçsə belə, bu, bölgədə ciddi dəyişikliklərə gətirib çıxarmayacaq.

Məsələ ilə bağlı Yaxın Şərq üzrə ekspert Vüqar Ziferoğlu "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, HƏMAS-ın Qəzzanı Fələstin Milli Administrasiyasına təhvil verməyə hazır olması əslində ciddi məqamlardan xəbər verir: "Uzun illərdi ki, HƏMAS Fələstin Azadlıq Təşkilatından fərqli olaraq, İsrailə qarşı daha radikal mövqe sərgiləyir. Qəzza zolağına nəzarəti itirmək HƏMAS üçün böyük siyasi və hərbi itki deməkdir. Görünür, son proseslər, eləcə də ciddi beynəlxalq və regional təzyiqlər HƏMAS-ı geri addım atmağa vadar edib. Lakin HƏMAS-ın dövlət qulluqçularının yeni administrasiyada yer alması və pensiya təminatı kimi tələbləri göstərir ki, o, Qəzzadan tam olaraq geri çəkilməyəcək, bu məsələdə daha çox güzəşt əldə etmək istəyir. Bu, həm də gələcəkdə onların təsirini qoruyub saxlaması üçün bir mexanizm ola bilər. Nəzərə almaq lazımdır ki, Qəzza zolağında HƏMAS-ın kifayət qədər nüfuzu qalmaqdadır".

### Misir və İordaniyanın marağı nədir?

"Misir və İordaniya isə əsasən, bölgədə sabitliyin qorunmasında maraqlıdırlar. Qəzza üzərində Fələstin Milli Administrasiyasının nəzarəti bərpa olunarsa, bu, Qahirə üçün təhlükəsizlik baxımından faydalı olacaq, çünki hazırda Misir öz ərazisi olan Sinay yarımadasında radikal islamçı qruplarla mübarizə aparır. HƏMAS-ın "İxvan" - Müsəlman Qardaşları təşkilatına bağlılığı səbəbi ilə Misirin mövcud iqtidarına müxalifət təşkil edir". İordaniyaya gəlincə, V.Ziferoğlu qeyd edib: "İordaniya isə Fələstin məsələsində daha çox diplomatik oyunçu rolunda çıxış edir və Mahmud Abbas administrasiyasının güclənməsinə dəstək vermək istəyir".




### FMA Netanyahu üçün münasib ola bilər, amma.....

"Netanyahu hakimiyyəti üçün FMA-nın Qəzzaya nəzarəti bərpa etməsi, ilk baxışdan, HƏMAS-ın zəifləməsi kimi görünə bilər. Lakin İsrail üçün daha önəmli məsələ Fələstin dövlətçiliyinin əngəllənməsidir. O, FMA-nın güclənməsini istəməyə bilər, lakin HƏMAS-ı da özü üçün olduqca ciddi təhlükə kimi görür. Sözsüz ki, yaxın zamanda Baş nazir Benyamin Netanyahu buna öz münasibətini bildirəcək," - deyə V.Ziferoğlu vurğulayıb.

### Bəs, Tramp administrasiyası?

Ekspert bildirib ki, ABŞ Prezidenti Donald Tramp Yaxın Şərq siyasətində daha çox regionda İsrailin maraqlarını təmin etməyə çalışacaq: "Tramp administrasiyasına gəldikdə isə, onların əsas prioriteti İsrailin maraqlarına uyğun olan hər hansı razılaşmadır. Nəticə etibarı ilə HƏMAS-ın bu addımı müəyyən mənada daha çox taktik, gediş kimi görünür".

*Yunis ABDULLAYEV*

# Kilsədə metafizik macəra

## Viktor Hüqonun "Paris Notr-Dam kilsəsi" romanı haqqında

**əvvəli ötən sayımızda**

İşə bax ki, qadir Allah xilas missiyasını əlində silah kimi söz oynadan şairin, söz kimi kəskin qılınc qurşamış cəngavərin, Məsihin taxt-tacını, kəlamını miras almış keşişin yox, bu xidmət üçün qətiyyən yaramayan meymunabənzər bir məxluqun əliylə həyata keçirir. Dili-ağzı, gözü-qulağı qıfıllı məxluq Mütləq Ruhun seçimiylə metafizik fiqura, Tanrının mühüm tapşırıqlar üzrə səlahiyyətli elçisinə çevrilir. Kilsəni elmi-fəlsəfi laboratoriyaya döndərmiş ruhani alim, dünyadan əlini çəkmiş tərki-dünya zahid yox, oxuma-yazma öyrənmiş olsa belə elmdən, bilikdən məhrum bir nadan, indiyəcən himayədarının iradəsinə kor-koranə tabe olmuş bir avam.

Qaraçı qızı Esmeralda bakirə Məryəm ananın timsalıdır. Tanrı onu dərgahına çağıranacan qızın məsumluğu qorunmalıdır. Bu müqəddəs missiyanı yalnız bədənindən yarımmaməş Kvazimodonun çiyninə qoymaq olar. İçi ilahi eşqlə dolu Kvazimodo Esmeraldanı qorumaq naminə xaraba can evini fələyin güdazına verməyə hazırdır. Onun sevgisi tez bir zamanda ürək dağlayan, can yandıran mərhəmətə, misli görünməmiş fədakarlığa çevrilir. Eşq bünövrəsindən məhrum saxta mərhəməti bankrota uğramış keşiş Frollonun ehtirası isə, əksinə, rəhmsiz, amansız soyuq nifrətə dönür.

***

1482-ci ilin 6 yanvarı. Paris əhli xristian bayramı münasibətiylə göstəriləcək dini tamaşaya (misteriya) baxmaq üçün Ədalət sarayına toplaşıb. Tamaşanın nümayişi yubanır deyə narazı kütlə deyinməyə başlayır. Misteriyanın həyəcanlı müəllifi şair-dramaturq Pyer Qrenquar aktyorlara başlamaq göstərişi verir. Tamaşanın proloqu binəmiş kardinalla səfirlər hadisə yerində peyda olurlar. Kütlənin fikri onlara yönəlir, tamaşa yaddan çıxır, dramaturqun canfəşanlığı nəticə vermir. Tədbirin iflasa uğraması Qrenquarı ümidsizliyə qapadır. Qonaqların təklifiylə kütlə təlxəklərin kralını seçmək kimi daha şən, daha maraqlı bir oyuna girişir. Namizədlər arasından bu uca, şərəfli məqama kilsənin zəngçalanı eybəcər Kvazimodo seçilir. Notr-Dam qozbeli o qədər eybəcərdir ki, onu maskalamağa, üz-gözünə qorxunc, bədheybət ifadələr verməyə ehtiyac yoxdur. Karnaval əhli adət üzrə yalançı kralı çiyninə alıb küçələr boyu gəzdirir.

Şair Pyer Qrenquar peşman-peşman Qrev meydanına üz tutur. Bura köhnə Parisin insan qaynaşan əsas mərkəzidir, əhali tamaşalara, edamlara baxmaq üçün Qrev meydanına toplaşır. Romandakı qəhrəmanların da yolu bu meydanda kəsişir. Kütlənin sevib alqışladığı, baş keşiş Klod Frollonun lənətlədiyi on altı yaşlı qaraçı gözəli Esmeralda burada çalıb oxuyub oynayır. Keşiş karnavalı yarımçıq qoyur, təlxəklər kralı Kvazimodonu taxtından devirib onlardan alır. Qrenquar ona dəqiq elmlərdən dərs demiş müəllimi Klod atanı aralıdan görəndə tanıyır.

Günün sonuna doğru qalmağa yeri-yurdu olmayan şair Esmeraldanın getdiyi səmtə doğru dar küçəylə ümidsiz-ümidsiz addımlayır. Birdən o, tükürpədən qadın çığırtısı eşidir: iki nəfər Esmeraldanın ağzını yumub qızı qaçırmağa çalışır. Pyer hay salıb köməyə adam çağırır, səsə kral nişançılarının kapitanı özünü yetirib qızı qaçıranların əlindən alır. Məlum olur ki, Esmeraldanı qaçırmaq istəyənlərdən biri Kvazimododur, o biri quldursa aradan çıxıb. Qaraçı qızı xilaskarı Feb de Şatoperə heyranlıqla tamaşa eləyir.

Tale bəxtikəm şairi dilənçilərin, oğruların toplaşdığı "Möcüzələr səltənətinə" aparıb çıxarır. Buranın qaydaları sivil cəmiyyətin qanunlarından daha amansızdır. Oğru-quldur dünyasının tələblərinə cavab vermədiyinə, ondan ötrü keçirilən sınaqdan çıxmadığına görə uğursuz filosofu dar ağacı gözləyir. Adətə görə, onu yalnız özünə ər seçməklə hansısa qadın xilas eləyə bilər. Vaxtında tərpənən Esmeralda Pyeri dörd illiyinə ərliyə götürməklə şairi dardan qurtarır. Qızın komasında Qrenquar ərlik borcunu yerinə yetirmək üçün kişilənmək istəyəndə Esmeralda xəncər çıxarıb deyir ki, bu yalançı nikaha ona rəhmi gəldiyinə görə qol qoyub. Onsuz da getməyə yeri olmayan şair arvadının evində qonaq kimi gecələyir. Qızın isə xəyalındakı yalnız Febdir.

***

Ertəsi gün Esmeraldanı qaçırmaq istəyən quldur məhkəmə qarşısına çıxarılır...

Onun iyirmi yaşı var, on altı il bundan qabaq himayədarı bu atılmış zavallını çöldən tapıb, camaatın iblis törəməsi sayıb gen dolandığı eybəcər uşağa yiyə durub, ona ad qoyub, onu bəsləyib böyüdüb, ona yazıb oxumağı, nəhəng kilsə zənglərini hərəkətə gətirib səsləndirməyi öyrədib. Notr-Dam kilsəsi onun həm evi, həm vətəni, həm də bütün dünyasıdır. Cəmi bəşər övladına nifrət bəsləyən Kvazimodo ağasına it kimi sadiqdir. Məhz bu sədaqətinə görə onun Esmeraldanı qaçırmaq əmrinə də sözsüz-sovsuz tabe olub. İndi də bu kölə sədaqətinin cəriməsini ödəməlidir.

Gəncliyində Klod Frollo çox çalışqan, çox da oxuyan olub, elm dəryasına baş vurmaqdan usanmayıb. Vəba epidemiyası yayılan zaman ata-anasının ömrü kəsildiyindən on doqquz yaşlı Klod mehrini atalıq-analıq elədiyi kiçik qardaşı Jana salıb. İyirmi yaşına çatanda ona dini rütbə verilib. Şəhvəti haram buyuran katolik məzhəbinin yasaqlarına uyğun olaraq keşiş Frollo evlənməyib, canında ac-susuz yatan valideynlik instinktini balaca qardaşı Janı, övladlığa götürdüyü Kvazimodonu bəsləməklə doyurub. Tərslikdən qardaşı da avara, tənbəl böyüyüb, onun ümidlərini doğrultmayıb.

Jandan əlini üzən keşiş Klod nücum, kimya elminə baş vurur, kilsədə özünə laboratoriya düzəldir, sehirli fəlsəfə daşının axtarışına çıxır. Onun münəccimliyə, kimyagərliyə meyil saldığını eşidən xalq arxidiakonun falçı, cadugər olduğuna inanmağa başlayır. Bir gün hətta kral özü onun apardığı təcrübələrə baxmaq üçün özgə qiyafəyə bürünüb gizlicə kilsəyə gəlir...

Kar Kvazimodonu mühakimə eləyən hakim də kar olur (bu səhnə Şərq mistiklərinin metafizik məzmunlu lətifələrinə bənzəyir), necə deyərlər, axsaq atın kor nalbəndi... Nəticə isə qətiyyən gülməli deyil: meydanda rüsvayçılıq dirəyinə sarınmaqla qamçılanmaq! Azmış kimi tamaşaya yığılmış şəhər əhli də onu daşqalaq eləyir, onun əzablarından iblisanə bir sevinclə zövq alır. Camaat onu daşa basmaqla savaba batdığını, şeytanı daşladığını güman eləyir.

Məhkum xırıldayan səsiylə su istəyir, ancaq ona bir içim su verməyə kimsədə nə istək, nə cəsarət tapılır. Bu vaxt Esmeralda qəfil hadisə yerində peyda olur. Kvazimodo çəkdiyi əzabların baiskarını gözləriylə yandırıb külə döndərmək istəyir, ancaq qız qorxmadan məhkumun yanına qalxıb əlindəki su qabını onun dodaqlarına söykəyir. Ömründə ilk dəfə Kvazimodonun gözündən yaş gəlir. Hərdəmxəyal kütlə bu səfər də xeyir, gözəllik, gənclik timsalı məsum qızın şər, eybəcərlik, iyrənclik simvoluna çevrilmiş bir şikəsti dirilik suyu ilə suvarmasını eyni həvəs, eyni canfəşanlıqla alqışlayır.



**F.Uğurlu**

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN




# “Şərqin Aristoteli”...



Filosof, şair və ədəbiyyatşünas Nəsirəddin Tusinin adı bəşər tarixində göstərdiyi misilsiz xidmətlərə görə həmişə öndə gəlir. Çoxcəhətli yaradıcılığı, ensiklopedik zəkası, təkzibedilməz mütəfəkkirlik qabiliyyəti ilə təkcə Şərq fəlsəfəsinə deyil, ümumdünya təfəkkür tarixinə təsir edə biləcək bir yaradıcılıq yolu keçmişdi. O, əsası Şərq dünyagörüşündən qaynaqlanan antik fəlsəfənin nəzərlərinə istinad edərək varlığın təməlində od, su, torpaq və hava kimi 4 ünsürün durduğunu iddia edirdi.

Nəsrəddin Tusinin dünyagörüşünə görə maddə heç zaman məhv olmur, sadəcə olaraq, bir formadan digər formaya keçir. Digər filosoflardan fərqli olaraq maddənin varlığının məhvi ilə onun maddiliyinin itməsi fikrinin əleyinə çıxırdı. Lakin bu məsələyə fərqli münasibətini nəzərə almasaq, Tusinin varlıq haqqındakı fikirlərinin Farabi, İbn Sina və Bəhmənyarın fikirləri ilə üst-üstə düşdüyünü görərik.

Yeri gəlmişkən, bu gün N.Tusinin anadan olmasından 824 il ötür. O, 1201-ci il fevralın 18-də Həmədan şəhərinin Bahar bölgəsində anadan olub. Tusi elə uşaqlıq illərindən bir çox elmlərə tam yiyələnmək üçün bütün bilik və enerjisindən istifadə etmişdi. Bu elə bir dövr idi ki, elm, ədəbiyyat, incəsənət, mədəniyyət yüksək səviyyədə inkişaf etməkdə idi. Antik və erkən orta əsr dövrünün tanınmış alimlərinin əsərləri ilə tanış olmaqdan ötrü, o, bir çox dilləri öyrənərək, eyni zamanda elmin bir neçə sahəsinə dərindən yiyələnir.

## “Bəşəriyyətin müəllimi” və alimlər alimi...

Nəsirəddin Tusinin 13-cü əsrin görkəmli alim, ictimai xadim və ediblərindən biri kimi adı çox zaman elmin rəmzi olaraq çəkilir. Ensiklopedik zəka sahibi olub və öz sağlığında belə “alimlər alimi” kimi geniş şöhrət qazanıb. Onu həm də dövründə “ustad əlbəşər” (“bəşəriyyətin müəllimi”), “sultan əl-hükəma” (“həkimlər sultanı”), “əsrin yeganəsi”, “sonuncu filosof” kimi mötəbər və möhtəşəm adlarla da çağırıblar. Hətta şagirdinin riyaziyyat sahəsində istedadını görən müəllimi heyrətə gələrək adamları arasında qürurla demişdi: “Mənim riyaziyyat sahəsində bildiklərim bu uşağınkından çox deyil. O, gələcəyin ən böyük alimi olacaq. Kim buna şübhə etsə, bir vaxt mənim sözlərimi xatırlayaraq peşman olacaq”.

## Ədəbiyyat bilicisi və şair

N.Tusi həm də bədii yaradıcılığa sahib idi. Ədəbiyyatşünaslıq elmi ilə məşğul olan, poetikaya aid əsərlər yazan Tusi özünü ədəbiyyat bilicisi kimi təsdiq etmişdi. Tədqiqatçı, filologiya elmləri doktoru Yaqub Babayev onun haqqında yazıb: “Nəsirəddin Tusinin ədəbiyyatşünaslıq bacarığı və bədii talantı nəhəng və uca elmi əzəmətinin kölgəsində qalmış, daha doğrusu, alim Tusi şair və ədəbiyyatşünas Tusini unutdurmuşdur”.

Bu baxımdan görkəmli alimin “Meyarül-əşar” (“Şeirin ölçüləri”) və məntiqə dair yazılmış “Əsasül-iqtibas” risaləsinin 9-cu fəsli poetikaya həsr olunan sanballı əsərlər kimi diqqəti cəlb edir. Ona görə də Tusini görkəmli filosof-alim Aristotellə müqayisə edib “Şərqin Aristoteli” adlandırmaq olar. Bu mənada ki, dünyanın 7 müdrikindən biri kimi ad-san qazanmış Aristotel həm də dünya ədəbiyyatşünaslığının elmi cəhətdən əsasını qoyan məşhur “Poetika” əsərinin müəllifidir. Nəsirəddin Tusi öz istedadını daha çox dəqiq elmlərə həsr etməsinə baxmayaraq, zəngin şeir ənənələrindən çıxış edərək poetika haqqında sanballı kitab yazan ilk müəlliflərdəndir.

*Yeganə BAYRAMOVA*

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Ədalət Partiyasının sədri

**İLYAS İSMAYILOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.




# “Qadın Dəstək Xətti” 2024-cü il üzrə hesabatını açıqlayır

***Azercell-in təşəbbüsü ilə yaradılan və fəaliyyət göstərən xidmət 1500-dən çox qadına dəstək olub***

“Qadın Dəstək Xətti” (QDX) 2024-cü il üzrə fəaliyyətinin nəticələrini açıqlayıb. İl ərzində xidmətə ümumilikdə 1623 müraciət daxil olub. QDX çətin həyat şəraitində olan qadınların müraciətlərinə operativ şəkildə reaksiya verərək ilkin psixoloji yardım göstərib, ehtiyac olduqda qadınlarla fərdi görüşlər təşkil edib və ya sorğunun müvafiq qurumlara yönləndirilməsini təmin edib.

QDX-nin əsas məqsədi yardıma ehtiyacı olan qadınlara psixoloji, hüquqi, sosial və emosional dəstək göstərmək, onların reabilitasiyasına və cəmiyyətə inteqrasiyasına yardım etməkdir. Xidmətə müraciət edən qadınların məlumatlarının məxfiliyi tam qorunur. Sorğu yalnız qadınların razılığı əsasında dövlət qurumları, yerli strukturlar və sosial xidmət müəssisələrinə ötürülə bilər. Xidmət icma əsaslı hüquq klinikaları, reabilitasiya mərkəzləri, sığınacaqlar və hüquqi məsləhət verən qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edir. “Qadın Dəstək Xətti”, həmçinin zorakılıq qurbanı olan qadınlar və onların övladlarına həm qısamüddətli, həm də uzunmüddətli dəstək göstərir.

Hesabat ilində daxil olan müraciətlərin təsnifatına əsasən zənglərin əksəriyyəti hüquqların qorunması (495), boşanma prosesi ilə bağlı çətinliklər (472) və məişət zorakılığı halları (304) ilə bağlı olub. Zənglərin digər hissəsi sosial-maddi rifah (267), sığınacaqla təmin olunma (43), səhiyyə hüququnun təmin edilməsi (42) mövzularını əhatə edib.

Xatırladaq ki, “Qadın Dəstək Xətti” 2022-ci ildə Azercell-in təşəbbüsü ilə yaradılıb. Xidmət lider mobil operator, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və “Ümidli Gələcək” Sosial Təşəbbüslər İctimai Birliyinin dəstəyi ilə fəaliyyət göstərir. Xidmətin əlçatanlığını artırmaq məqsədilə “Qadın Dəstək Xətti”nin peşəkar işçi heyəti 24 saat fəaliyyət göstərən 116111 qısa nömrəsi, Facebook, Instagram və TikTok səhifələri vasitəsilə xidmət göstərir.

“Azercell Telekom” MMC fəaliyyəti haqqında daha ətraflı məlumat əldə etmək üçün rəsmi Azercell səhifəsinə daxil olun.

# Sağlam diş, sağlam orqanizm deməkdir

Bu gün dünya əhalisinin böyük qismi diş və diş əti xəstəliklərindən əziyyət çəkir. İnsanların böyük əksəriyyəti dişlərə düzgün şəkildə qulluq qaydasından xəbərsizdir. Halbuki sağlam orqanizmin olması üçün dişlər sağlam olmalıdır. Çünki dişlər vasitəsilə qidalar çeynənilir, orqanizmə qəbul edilir. Yaxşı çeynənilməmiş qidalar isə bəzi həzm sistemi problemlərinə yol aça bilər. Çürük dişlər ağızda qoxuya, diş və baş ağrısına, həzm problemlərinə səbəb olur.

## Stomatologiyanın tarixi

ABŞ və Fransa alimləri tədqiqatlar zamanı qədim stomatoloqların hələ 9 min il əvvəl ilk bormaşının prototipindən istifadə etdiklərini aşkar ediblər. Pakistanın Bəlucistan əyalətində tapılan bizim eradan əvvəl VI-IV əsrlərdə yaşamış insan qalıqlarını tədqiq edərkən onların bəzi dişlərində 1-3 millimetr diametrdə və 3,5 millimetrə qədər dərinlikdə deşiklər aşkar edilib. Həmin fakt stomatologiyanın qədimliyinin sübutudur və maraqlıdır ki, açılan deşiklərdən biri çənənin iç tərəfindən olub.

Azərbaycanda diş həkimlərinin ilk təşkilatı 1871-ci ildə Bakıda yaradılıb. 1919-cu ildə Bakı Dövlət Universitetində açılan tibb fakültəsində tələbələr diş xəstəliklərini öyrənməyə başlayıblar. 1930-cu ildə yaradılmış Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinin verdiyi ixtisaslara stomatologiya ixtisası da daxil edilib. Stomatologiya fakültəsi sərbəst fakültə kimi 1954-cü ildə yaradılıb. 1977-ci ildə uşaq stomatologiyası kafedrası açılıb. 2002-ci ildən Azərbaycan Tibb Universitetinin Stomatoloji Klinikası fəaliyyət göstərir.

## Diş sağlamlığımızı necə qoruyaq?

Sualımızı cavablandıran həkim-stomatoloq Elvin Cabbarov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, əvvəla, ağız və diş sağlamlığını qorumaq üçün 6 ayda bir müntəzəm olaraq diş həkimi müayinəsində olmalıyıq: “Diş çürüməsinin qarşısını almaq üçün əsas qaydalar suda kifayət qədər flüor olması, dişlərinizi müntəzəm olaraq fırçalamaq, diş ipindən istifadə etmək, həddindən artıq şirin və şəkərli qidalardan mümkün olduğu qədər uzaq durmaq, yeməkdən sonra dişlərinizi fırçalamaqdır. Dişlərin fırçalanması və müntəzəm diş həkimi müayinəsi də diş əti xəstəliklərinin qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Həddindən artıq turş və şəkərli qidalar mikroorqanizmlərin təsirini artırır. Bununla yanaşı, dişləri sərt qabıqlı məhsulları məsələn, fındıq, qoz və s. sındırmaq üçün istifadə etmək olmaz. Qabıqlı qidalar dişlə parçalanmamalıdır. Bunlar diş minasının çatlamasına səbəb olur və diş minasının qoruyucu təsiri yox olur. Nəticədə bakteriyalar dişə nüfuz edir, gələcəkdə dişlə bağlı bir sıra fəsadlara gətirib çıxarır”.

## Dişlərinizi belə fırçalamayın...

Məlumdur ki, ağız sağlamlığımızı qorumağın ən vacib komponenti dişlərin fırçalanmasıdır. Stomatoloq diş fırçalamaqla bağlı da tövsiyələrini bölüşüb: “Əvvəla diş fırçası nəm olmamalıdır. Diş pastası çox az formada istifadə edilməlidir. Dişlər ilk olaraq diş ətindən dişə 45 dərəcə bucaq altında dairəvi hərəkətlər edərək ön tərəfdən fırçalanmalıdır. Ön dişlərdən arxa dişlərə qədər bütün dişlərin fırçalanmasına diqqət yetirilməlidir. Eyni şəkildə dişlərin arxa səthləri də fırçalanmalıdır. Ön dişlərin arxa səthləri fırçanı şaquli vəziyyətdə tutaraq təmizlənməlidir. Son addım olaraq dişlərin çeynəmə səthləri irəli-geri hərəkətlərlə təmizlənməlidir. Fırçalama prosesi bu şəkildə dayandırılmalıdır.

Bundan əlavə daha effektiv şəkildə fırçalamaq üçün həkimin tövsiyə etdiyi sərtliyə malik diş fırçası istifadə etmək lazımdır. Çox məcun istifadə etmək ağızdakı təravəti artırır, beləliklə, dişlər tam təmizlənmədən fırçalama prosesinin dayandırılmasına səbəb olur. Bu, effektiv təmizləmənin qarşısını alır. Fırçalama heç vaxt sağdan sola üfüqi şəkildə aparılmamalıdır. Horizontal fırçalama diş minasını aşındırır, həssaslığı artırır, dişlərin rənginin dəyişməsinə səbəb olur və diş ətlərinin geri çəkilməsinə səbəb olur. Başqa sözlə desək, diş fırçası düzgün istifadə edilmədikdə, zamanla bədənin ən sərt toxuması olan diş minasını zədələyə bilər”.



## Vaxtında müraciət edilməlidir!

Stomatoloq bildirib ki, pasiyentlər həkimə ən azı ildə iki dəfə müraciət etməlidirlər, yalnız dişləri ağrıyanda yox: “Məsələn, dişlərdə kariyes başlayanda dişin sinirini çıxartmadan, kariyersi təmizləyib plomb qoya bilirik. Bu zaman diş itirilmir. Lakin bəzən insanların diş ağrıları olur, sonra ağrılar kəsir və elə bilirlər ki, daha ağrımayacaq. Beləliklə, diş irinləyir, çirk edir və son məqamda həkimə gedirlər”.

## Ən çox tələbat implantlaradır

Həkim qeyd edib ki, bu gün stomatologiyada ən çox tələbat implantalogiyayadır. Onun sözlərinə görə, bu sahə ölkəmizdə yüksək inkişaf edib: “Adətən Avropa və Cənubi Koreya implanlatlarına müraciət edirik. İmplantlar itirilmiş dişləri əvəz edir. Əlbəttə ki, implant qoymaq üçün pasientə müyyən göstəriş olmalıdır. Bu prosedur işimizin 95, hətta bir az artıq faizini təşkil edir. Ölkəmizdə implantalogiya dünya standartlarına uyğundur. Əvvəllər xəstələrin itirilmiş dişlərini çıxmayan protezlərlə əvəz edirdik, bunun da bir çox diskomfort tərəfləri var. Amma implantla bərpa olunan dişlər pasiyentə rahatlıq verir”.

E.Cabbarov vurğulayıb ki, stomatologiyada inkişaf edən digər sahə estetik stomatologiyadır. Bura vinirlər, zirkonium qapaqlar daxildir: “Bir həkim olaraq məsləhət görərdim ki, pasiyentlər bu prosedura ehtiyac olsa, müraciət etsinlər. Adətən ana dişlərini vinirlər, zirkonium və metal-keramik qapaqlarla əvəz edirlər. Ancaq göstəriş varsa, dişin ən azı üçdə ikisi itirilibsə, bu proseduru etmək lazımdır”.

## Gündə 2 dəfə...

Stomatoloq dişlərə düzgün qulluq barədə də danışıb: “Dişlərə gündə 2 dəfə qulluq etmək vacibdir - səhər yeməyindən sonra və axşam yatmazdan əvvəl. Son illər dünya əhalisinin 92 faizi paradantoloji, yəni diş əti xəstəliklərindən əziyyət çəkir. Ona görə də vaxtında həkimə müraciət etmək lazımdır”.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66

Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4615**
**Sifariş: 394**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova